Günəş Şərqdən doğur!

№ 202 (5723), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 4 noyabr 2022-ci il (cümə)

## Kəlbəcər istiqamətində mövqelərimiz atəşə tutulub



Noyabrın 3-ü saat 20:15-də Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Ordumuzun Kəlbəcər rayonunun Bəzirxana yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, Azərbaycan Ordusunun bu istiqamətdə yerləşən bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.




## XİN təsdiqlədi

### Blinkenin iştirakı ilə Ceyhun Bayramov və Mirzoyan Vaşinqtonda görüşəcək

**ABŞ Dövlət katibi Entoni Blinken, Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov və Ermənistan xarici işlər naziri Ararat Mirzoyan yaxın günlərdə Vaşinqtonda görüşəcək.**

Bu barədə Ermənistan XİN başçısı Ararat Mirzoyan parlamentdə çıxışı zamanı deyib.

O görüşün keçiriləcəyi dəqiq tarixi açıqlamayıb.

"Bəli, həqiqətən də yaxın günlərdə Vaşinqton şəhərində Amerika Birləşmiş Ştatları dövlət katibi Entoni Blinkenin təşəbbüsü və iştirakı ilə Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Ermənistan Respublikasının xarici işlər naziri Ararat Mirzoyan arasında görüşün keçirilməsi planlaşdırılır".

(Səh.4)

# Tərəflər Brüsseldə razılığa gəliblər



### Azərbaycanla Ermənistan delimitasiya, sərhəd Komissiyalarının işini sürətləndirəcək



3 noyabr 2022-ci il tarixində Brüssel şəhərində Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Respublikasının Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi altında, müvafiq olaraq, Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın üçüncü görüşü keçirilib.

(Səh.2)



## Almaniya XİN vətəndaşlarını İranı dərhal tərk etməyə çağırıb

**Almaniya Xarici İşlər Nazirliyi (XİN) bütün vətəndaşlarını İranı dərhal tərk etməyə çağırıb.**

APA DW-yə istinadən xəbər verir ki, bu barədə Almaniya XİN bəyanat yayıb.

Nazirlikdən bildirilib ki, almanlar "özbaşına həbs olunmaq, dindirilmək və uzun müddətə azadlıqdan məhrum edilmək kimi konkret təhlükə ilə" üz-üzədirlər.

"Həmdan əvvəl, ikili vətəndaşlığı - İran və Almaniya vətəndaşlığı olan şəxslər risk altındadır", - bəyanatda deyilir.

# Mədəniyyətimizə "oğru"lar daraşıb

### Korrupsiya faktı ilə saxlanan məmurlara ən ağır cəza verilməlidir



**Dövlət Təhlükəsizliyi Xidməti Mədəniyyət Nazirliyində əməliyyat keçirib.**

Əməliyyat zamanı mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev, nazirliyin Təchizat və əmlak şöbəsinin müdiri İlkin Nəsibov, Protokol şöbəsinin rəisi Kamil Rzayev və digər vəzifəli şəxslər saxlanılaraq istintaqa cəlb ediliblər. DTX-nin keçirdiyi əməliyyatın detalları açıqlanmasa da, nazirliyin yüksək vəzifəli əməkdaşlarının korrupsiya və vəzifə səlahiyyətlərindən sui-istifadə hallarına görə saxlanıldıqları bildirilir.

O da məlum olub ki, əməliyyat keçirilən gün nazir Anar Kərimov işdə olmayıb. Mətbuatda yer alan məlumata görə, Hesablama Palatası Mədəniyyət Nazirliyində yoxlama aparıb, Anar Kərimovun vəzifədə olduğu dövr təftiş edilib.

(səh.8)

## DSX əsgəri özünü güllələyib



Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının N saylı hissəsinin əsgəri Baxşəliyev Onur Nazim oğlunun istifadəsində olan silahla özünə atəş açması nəticəsində xəsarət yetirməsi faktı ilə bağlı hazırda Lənkəran hərbi prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci maddəsi ilə cinayət işi başlanıb.

Bu barədə Baş Prokurorluğun Mətbuat xidmətindən bildirilib.

Xəbərə görə, hazırda qeyd olunan iş üzrə istintaq davam edir.

## Dərman siyasəti çox bərbad vəziyyətdədir

### Süni qiymət artımı yaratmaq üçün bəzən dərmanları qəsdən depolarda saxlayırlar



**Son zamanlar apteklərdə dərman qıtlığı yaşanır.**

Tələbat olan bəzi dərmanları aptekdə tapmaq olmur. Apteka üz tutduqda isə həmin dərmanların depoda tükəndiyi, yaxud satışının dayandırıldığı deyilir. Vətəndaşların ehtimalına görə, tələbat olan dərmanları firmalar qəsdən "yoxa çıxardır".

(səh.9)



## "Gürcüstanda müzakirə olunan qanun layihəsi qüsurludur"

Tural Abbaslı: "Bir iş adamı hansısa siyasi partiyaya dəstək vermək istəyirsə, bunun qadağan edilməsi doğru deyil"

(səh.7)



## Yekun sülh sazişi dekabrda reallaşa bilər

Artıq Paşinyan da Azərbaycan və Türkiyə ilə münasibətlərin qurulması üçün əngəlin qalmadığını bəyan edir

(səh.6)

# Xüsusi idarəetmə orqanı yaradılacaq

## Bununla bağlı Prezident İlham Əliyev Fərman imzalayıb

**"Fövqəladə vəziyyətin tətbiq edildiyi ərazinin komendantlığının fəaliyyəti Qaydası" təsdiq edilib. Bununla bağlı Prezident İlham Əliyev Fərman imzalayıb. Nazirlər Kabinetinə bu Fərmandan irəli gələn məsələləri həll etmək tapşırılıb.**

Fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə yaradılan mərkəzi idarəetmə orqanı fövqəladə vəziyyətin tətbiq edilməsinə səbəb olmuş şəraitin aradan qaldırılması ilə bağlı işləri əlaqələndirməkdən ötrü, habelə fövqəladə vəziyyətin tətbiq edildiyi ərazinin müvəqqəti xüsusi idarəetmə orqanı öz funksiyalarını lazımınca yerinə yetirə bilmədiyi halda Azərbaycan Respublikasının Prezidenti tərəfindən fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə yaradılan xüsusi idarəetmə orqanıdır.

Mərkəzi idarəetmə orqanının yaradılması ilə fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə fəaliyyət göstərən müvəqqəti xüsusi idarəetmə orqanı öz fəaliyyətini dayandırır. Həmçinin yerli icra hakimiyyəti orqanlarının və yerli özünüidarə orqanlarının səlahiyyətlərinin həyata keçirilməsi də dayandırılır və onların funksiyaları mərkəzi idarəetmə orqanı tərəfindən həyata keçirilir. Mərkəzi idarəetmə orqanı fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə, bu mümkün olmadıqda isə yaxın ərazidə yerləşir. Mərkəzi idarəetmə orqanının fəaliyyətinin maliyyələşdirilməsi Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir.

*Mərkəzi idarəetmə orqanının fəaliyyət istiqamətləri aşağıdakılardır:*

- fövqəladə vəziyyətin tətbiq edilməsinə səbəb olmuş şəraitin aradan qaldırılması ilə bağlı işlərin həyata keçirilməsinə nəzarət etmək və bu işləri əlaqələndirmək;

- fəaliyyəti dayandırılmış yerli icra hakimiyyəti orqanlarının və yerli özünüidarə orqanlarının funksiyalarını həyata keçirmək;

- fövqəladə vəziyyətin tətbiq edildiyi ərazinin komendantlığının fəaliyyətini təşkil etmək;

- Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi digər istiqamətlərdə fəaliyyət göstərmək.



Mərkəzi idarəetmə orqanı Azərbaycan Respublikası Prezidentinin fövqəladə vəziyyət rejimi çərçivəsində müəyyən etdiyi müddətdə fəaliyyət göstərir

Mərkəzi idarəetmə orqanı aşağıdakı vəzifələri yerinə yetirir:

- fövqəladə vəziyyətin tətbiq edilməsinə səbəb olmuş halların aradan qaldırılması üçün tədbirlər görmək;

- fövqəladə vəziyyətin tətbiqi zamanı həyata keçirilən tədbirlərin və müvəqqəti məhdudiyyətlərin icrasına nəzarət etmək;

- fəaliyyəti dayandırılmış yerli icra hakimiyyəti orqanlarının və yerli özünüidarə orqanlarının vəzifələrini yerinə yetirmək;

- fövqəladə vəziyyətin tətbiq edildiyi ərazinin komendantlığının işinə rəhbərlik etmək, o cümlədən onun səlahiyyətlərinin həyata keçirilməsinə nəzarət etmək;

- fövqəladə vəziyyətin tətbiq edilməsinə səbəb olmuş şəraitin aradan qaldırılması işlərinə cəlb olunmuş dövlət orqanlarının (qurumlarının), həmçinin hüquqi və fiziki şəxslərin fəaliyyətinin əlaqələndirilməsini həyata keçirmək;

- fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə dövlət mühafizəsi altında olan obyektlərin və həyat əhəmiyyətli infrastrukturun mühafizəsinin gücləndirilməsi üçün zəruri tədbirləri planlaşdırmaq və həyata keçirmək;

- Azərbaycan Respublikasının Prezidenti tərəfindən müvafiq səlahiyyətlər verildiyi halda, fövqəladə vəziyyətin qüvvədə olduğu müddətdə fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə yerləşən həyat təminatı obyektlərinə, sosial sahəyə və mənzil fondu obyektlərinin bərpasına yönəldilən büdcə vəsaitlərinin müəyyən olunmuş qaydada sərəncam vermək;

- Qanunla və Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

Mərkəzi idarəetmə orqanı fövqəladə vəziyyətin tətbiq edilmə səbəbi nəzərə alınmaqla aidiyyəti dövlət orqanlarının (qurumlarının) və yerli özünüidarə orqanlarının nümayəndələrindən ibarət tərkibdə yaradılır. Mərkəzi idarəetmə orqanının rəhbəri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad olunur. Mərkəzi idarəetmə orqanının rəhbəri ona həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır. Fövqəladə vəziyyətin tətbiq edildiyi ərazinin komendantlığı mərkəzi idarəetmə orqanının struktur tərkibinin bir hissəsi olur və həmin ərazinin komendantı vəzifəsinə görə mərkəzi idarəetmə orqanı rəhbərinin birinci müavini sayılır. Digər müavinlər Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırılmaqla mərkəzi idarəetmə orqanının rəhbəri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilirlər.

Mərkəzi idarəetmə orqanının strukturu və bu orqanın fəaliyyətinə cəlb olunan şəxslərin say həddi fövqəladə vəziyyətin tətbiq edilmə səbəbi və fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə fəaliyyəti dayandırılmış yerli icra hakimiyyəti orqanlarının və yerli özünüidarə orqanlarının səlahiyyətləri nəzərə alınmaqla, müəyyən edilir. Mərkəzi idarəetmə orqanının fəaliyyətinə cəlb olunan şəxsin əsas iş yeri və orta əmək haqqı saxlanılır. Mərkəzi idarəetmə orqanı Azərbaycan Respublikası Prezidentinin fövqəladə vəziyyət rejimi çərçivəsində müəyyən etdiyi müddətdə fəaliyyət göstərir. Mərkəzi idarəetmə orqanı ləğv edildikdən sonra onun fəaliyyəti ərzində hazırlanmış, əldə olunmuş sənədlər və məlumatlar mərkəzi idarəetmə orqanı rəhbərinin təmsil etdiyi dövlət orqanında saxlanılır.

Mərkəzi idarəetmə orqanı Azərbaycan Respublikası Prezidentinin fövqəladə vəziyyət rejimi çərçivəsində müəyyən etdiyi müddətdə fəaliyyət göstərir. Mərkəzi idarəetmə orqanı ləğv edildikdən sonra onun fəaliyyəti ərzində hazırlanmış, əldə olunmuş sənədlər və məlumatlar mərkəzi idarəetmə orqanı rəhbərinin təmsil etdiyi dövlət orqanında saxlanılır.

# Tərəflər Brüsseldə razılığa gəliblər

## Azərbaycanla Ermənistan delimitasiya, sərhəd Komissiyalarının işini sürətləndirəcək



**3 noyabr 2022-ci il tarixində Brüssel şəhərində Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Respublikasının Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi altında, müvafiq olaraq, Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın üçüncü görüşü keçirilib.**

Xarici İşlər Nazirliyindən Trend-ə verilən məlumata görə, iclas başlamazdan əvvəl Avropa Xarici Fəaliyyət Xidmətinin Baş katibi Stefano Sannino Azərbaycan Respublikası və Ermənistan Respublikası nümayəndə heyətlərini salamlayıb, Komissiyaların işinə uğurlar arzulayıb, Avropa İttifaqının Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında münasibətlərin normallaşması məsələlərində kömək etməyə bundan sonra da hazır olduğunu təsdiq edib.

Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Respublikasının Baş nazirinin müavini Mher Qriqoryan salamlama çıxışlarında Avropa İttifaqı Şurasına görüşün yaxşı təşkilinə görə təşəkkürlərini ifadə ediblər.

Tərəflər Azərbaycan Respublikasının və Ermənistan Respublikasının rəhbərləri səviyyəsində müxtəlif formatlarda əldə edilən razılaşmaları nəzərə alaraq, delimitasiya məsələlərinin müzakirəsini davam edib, təşkilati və prosedur məsələləri nəzərdən keçiriblər.

Komissiyaların birgə fəaliyyətinin hüquqi çərçivələrini müəyyən etmək məqsədilə, tərəflər Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın birgə fəaliyyət qaydasının razılaşdırılması üzrə işi sürətləndirmək barədə razılığa gəliblər.

Tərəflər Komissiyaların dördüncü iclasının keçirilməsinin tarixi və yerini işçi qaydada müəyyən etmək barədə razılığa gəliblər.

# Akademik Zərifə Əliyevanın 100 illik yubileyi qeyd ediləcək



**Prezident İlham Əliyev Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.**

Sərəncamda bildirilib ki, 2023-cü ilin aprel ayında Azərbaycanın görkəmli alimi, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Zərifə Əziz qızı Əliyevanın anadan olmasının 100 ili tamam olur.

Akademik Zərifə Əliyeva zəngin mənəviyyata sahib əsl ziyalı kimi mənalı ömür yolu keçmiş, əhatəli elmi fəaliyyəti ilə ölkəmizdə tibb sahəsinin inkişafına əhəmiyyətli töhfələr vermişdir. Alimin oftalmologiyanın aktual məsələlərinə dair uzunmüddətli araşdırmalarının uğurlu nəticəsi olan sanballı əsərləri həmişə təqdirlə qarşılanmış və yüksək qiymətə layiq görülmüşdür. Bu tədqiqatlarda irəli sürülən yeni və effektli müalicə metodları, kompleks profilaktik tədbirlər qısa müddətdə müvəffəqiyyətlə geniş tətbiqini tapmışdır. Azərbaycanda oftalmologiya məktəbinin ilk tədqiqat mərkəzi olaraq ixtisaslaşdırılmış elmi tədqiqat laboratoriyası məhz akademik Zərifə Əliyevanın təşəbbüsü ilə yaradılmışdır. Həkimlik etikasını bütün elmi və pedaqoji fəaliyyəti boyu daim diqqət mərkəzində saxlayan Zərifə Əliyeva respublikada yüksəkixtisaslı kadrların hazırlanması işinə gərgin əmək sərf etmiş, gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəslini formalaşdırmışdır.

*Səhiyyə Nazirliyinə Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə akademik Zərifə Əliyevanın 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirmək tapşırılıb. Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.*

# Müdafiə naziri cənub bölgəsində

## Zakir Həsənov xüsusi təyinatlılarla görüşüb, onların qayğıları ilə maraqlanıb və şəxsi heyət qarşısında çıxış edib







**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti respublikamızın cənub rayonlarında yerləşən hərbi hissə və birləşmələrin döyüş hazırlığını yoxlayıb.**

Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, noyabrın 3-də müdafiə naziri Xüsusi Təyinatlı Qüvvələrin hərbi hissələrinin qeyd olunan ərazilərdə keçirilən təlimini izləyib.

Məruzə olunub ki, xüsusi təyinatlıların döyüş hazırlığının yoxlanması və daha da yüksəldilməsi məqsədilə keçirilən təlimdə hərbi qulluqçular qarşıya qoyulan bütün tapşırıqları peşəkarlıqla yerinə yetirir. Hərbi Hava Qüvvələrinin, eləcə də Raket və Artilleriya bölmələrinin dəstəyi ilə icra olunan xüsusi əməliyyatlarda qoşun növləri arasında qarşılıqlı əlaqə yüksək səviyyədə təşkil edilir.

Sonra təlimin növbəti mərhələsinə uyğun olaraq tapşırıqların icrası nümayiş etdirilib.

Plana əsasən xüsusi təyinatlılar real döyüş şəraitində həqiqi döyüş sursatlarından istifadə olunmaqla açılan atəş altında irəliləyərək müdafiə olunan şərti düşmənə yaxınlaşıb, onun canlı qüvvəsini və atəş vasitələrini zərərsizləşdirərək dərinliyə doğru irəliləyiblər.

Təlimdə həmçinin yaşayış məntəqəsində döyüşün aparılması, şərti düşmənin dərinliyinə desant endirilməsi və pusqunun icrası, eləcə də hava yolu ilə qruplara təminatın çatdırılması üzrə fəaliyyətlər də icra olunub.

Təlimin gedişatını müsbət qiymətləndirən general-polkovnik Z.Həsənov xüsusi təyinatlılarla görüşüb, onların qayğıları ilə maraqlanıb və şəxsi heyət qarşısında çıxış edib.

Müdafiə naziri çıxışında xüsusi təyinatlıların Vətən müharibəsində, eləcə də son qarşıdurmalarda göstərdikləri şücaət və qəhrəmanlıq nümunələrinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən yüksək qiymətləndirildiyini bildirib. Onların təminat-təchizatının, o cümlədən döyüş hazırlığının daha da artırılmasının daim diqqət mərkəzində saxlanıldığını qeyd edib.

*Sonda general-polkovnik Z.Həsənov Azərbaycan Ordusunda qazanılan döyüş təcrübəsinin öyrənilməsi və müasir üsullarla keçirilən təlim-məşq prosesində tətbiq edilməsi ilə bağlı müvafiq tapşırıqlar verib.*

**Aygün**

# Qarşıdurma təhlükəsi hələ də qalmaqdadır

## KTMT: Qərb Kiyevi münaqişəni gərginləşdirməyə sövq edir



**Cari ilin hadisələri göstərdi ki, KTMT böhrana cavab mexanizmini optimallaşdırmalıdır, bu məsələ ilə bağlı sənədlər paketi hazırlanıb və razılaşdırılır. Bunu KTMT baş katibinin müavini Valeri Semerikov MDB ölkələrinin Təhlükəsizlik Şuraları katiblərinin görüşündə deyib.**

"Bu il təşkilatımızın məsuliyyət sahəsində baş verən hadisələr və insidentlər KTMT-nin böhran vəziyyətlərinə cavab mexanizminin optimallaşdırılması zərurətini göstərdi. KTMT-yə üzv dövlətlərin başçıları adından bu məsələ ilə bağlı müvafiq sənədlər paketi hazırlanıb və koordinasiya olunur", - deyə o bildirib.

Semerikov vurğulayıb ki, dünya düzəninin indiki transformasiyası dövrü birlik dövlətləri üçün ən ciddi güc sınağına çevrilib. Onun sözlərinə görə, Qərb Ukrayna tərəfinin bütün itkilərinə baxmayaraq, Kiyevi münaqişəni gərginləşdirməyə sövq edir, lakin KTMT-nin məsuliyyət zonasında digər gərginlik ocaqları dəstəklənir və alovlanır.

"Beləliklə, Ermənistan və Azərbaycan, eləcə də Qırğızıstan və Tacikistan arasında eskalasiya və qarşıdurma təhlükəsi qalmaqdadır," - deyə KTMT baş katibinin müavini qeyd edib.



## Stoltenberq taxıl sazişinə görə Ərdoğana təşəkkür edib

**"Mən Türkiyəyə, prezident Ərdoğan və xarici işlər naziri Çavuşoğluna taxıl sazişinin imzalanması və yenidən bərpa olunmasına görə təşəkkür edirəm."**

APA-nın İstanbul müxbiri xəbər verir ki, bu barədə NATO-nun Baş katibi Yens Stoltenberq Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu ilə birgə mətbuat konfransı zamanı bildirib.

O əlavə edib ki, Türkiyə NATO-nun çox vacib üzvüdür və terrorla mübarizədə böyük işlər görür. Onun sözlərinə görə, NATO da öz növbəsində Türkiyənin təhlükəsizliyinə böyük dəstək verir.

Stoltenberq qeyd edib ki, regionda baş verən hadisələr İsveç və Finlandiyanın NATO-ya üzvlüyünün nə dərəcədə vacib olduğunu götərir. NATO-nun baş katibi, həmçinin, iki ölkənin Türkiyənin tələblərini yerinə yetirəcəklərinə inandığını da vurğulayıb: "Düşünürəm ki, artıq İsveç və Finlandiyanın NATO-ya tamhüquqlu üzv olmasının, onlara xoş gəlmisiniz deməyin vaxtı çatıb".

## Azərbaycan Prezidentinin Protokol xidmətinə rəis təyin edildi

**Prezident İlham Əliyev A.V.Səmədovun Azərbaycan Respublikası Prezidentinin Protokol xidməti rəisinin müavini vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.**

Sərəncamla Arif Vasif oğlu Səmədov Azərbaycan Respublikası Prezidentinin Protokol xidməti rəisinin müavini vəzifəsindən azad edilib.

Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

Dövlət başçısının digər Sərəncamı ilə Arif Vasif oğlu Səmədov Azərbaycan Respublikası Prezidentinin Protokol xidmətinin rəisi təyin edilib.

## NATO münasibətlərin normallaşdırılmasını dəstəkləyir

### "Azərbaycanla Ermənistanın sərhədlərin delimitasiyası məsələsini müzakirə etməsi gözəl xəbərdir"



**Tərəfdaşlarımızın sərhədlərin delimitasiyası məsələsini müzakirə etməsi yaxşı xəbərdir.**

Bunu NATO-nun Baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Xavier Kolomina "Twitter"də bildirib.

O, bölgədə təhlükəsizliyin daha da artırılmasının vacibliyini vurğulayıb.

"NATO Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılmasını dəstəkləyir və Avropa İttifaqının (Aİ) bu danışıqlara ev sahibliyi etməsi və bu yaxınlarda Aİ Monitorinq Missiyasını başlatması də daxil olmaqla bu istiqamətdəki səylərini alqışlayır", - deyə Kolomina qeyd edib.

## Türkiyənin vitse-prezidenti Azərbaycana səfərə gəlib



**Türkiyənin vitse-prezidenti Fuad Oktay Azərbaycana səfərə gəlib.**

Bu barədə F.Oktay öz "Twitter" səhifəsində yazıb.

"Türkiyə və Azərbaycan Hökumətlərarası Birgə İqtisadi Komissiyanın 10-cu iclasını keçirmək və hər sahədə əməkdaşlığımızı gücləndirmək üçün can Azərbaycandayıq",- deyə Fuad Oktay qeyd edib.

## İranda azərbaycanlı qadının qətli ilə bağlı etiraz aksiyası keçirilir



**İranın Kərəc şəhərində azərbaycanlı gənc qadın Hədis Nəcəfinin ölümünün 40-cı günündə etiraz aksiyası keçirilir.**

Trend-in məlumatına görə, aksiyada təhlükəsizlik qüvvələri ilə etirazçılar arasında qarşıdurma yaranıb. Polisin etirazçılara qarşı zor tətbiq etdiyi və silahdan istifadə etdiyi bildirilir.

Qeyd edək ki, Hədis Nəcəfi iranlı qız Məhsa Əmininin ölümündən sonra keçirilən etiraz aksiyalarında öldürülüb.

*Xatırladaq ki, 16 sentyabrda Tehranda 22 yaşlı Məhsa Əmininin Tehranın əxlaq polisi əməkdaşları tərəfindən öldürülməsinə etiraz olaraq İranın bir neçə şəhərində aksiyalar başlayıb. M.Əmini şəriət normalarına riayət olunmasına nəzarət edən əxlaq polisinin xüsusi dəstəsi tərəfindən saxlanılıb. Gənc qız İran qanunlarına əsasən hicaba düzgün riayət etməməkdə ittiham edilib.*

ŞƏRQ Müstəqil ictimai-siyasi qəzet






# "Biz Zəngəzur dəhlizi üçün 45 km yol təklif edirik"

## Vüsal Qasımlı: "45 km əvəzinə 500 km-ə qədər yol yük daşınması üçün nə dərəcədə səmərəli ola bilər?"

**Dünən Yeni Azərbaycan Partiyası və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin təşkilatçılığı ilə "Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə post-konflikt quruculuğu modeli" mövzusunda Qələbənin ikinci ildönümü - Zəfər Gününə həsr olunmuş konfrans keçirilib. YAP sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov deyib ki, Prezident İlham Əliyevin Zəfərə hədəflənən siyasət nəticəsində Azərbaycan möhtəşəm qələbə qazanaraq ərazi bütövlüyünü bərpa edib.**

Dövlət başçısı ikili standartlar yanaşmasını iflasa uğradıb və yeni geosiyasi reallıqlar yaradıb. T.Budaqov bildirib ki, Azərbaycan Zəfəri quruculuq müstəvisində möhkəmləndirmək üçün addımlar atır, post-konflikt quruculuq modeli yaradır.

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı qeyd edib ki, Mərkəz tərəfindən Ermənistanın ərazi yüksəklik modeli qurulub və təqdim ediləcək:** "Biz Zəngəzur dəhlizi üçün 45 km yol təklif edirik. Ermənistan nə təklif edir? Təklif etdikləri həmin yollar Göyçə gölünün ətrafından keçməlidir. 45 km əvəzinə 500 km-ə qədər yol yük daşınması üçün nə dərəcədə səmərəli ola bilər? Avropa və Çin bu yollarla yük daşınmasında nə dərəcədə maraqlı olar? Həm də Ermənistanın ərazi yüksəklik modelini hazırlamışıq, İrəvanın təklif etdiyi və dağlardan keçən həmin yollar faktiki qış aylarında keçilməz olacaq".

**"Şuşada ilin sonunda "DOST" mərkəzlərinin fəaliyyətə başlayacağı gözlənilir"**

Kənd təsərrüfatı naziri İnam Kərimov azad olunmuş ərazilərdə kənd təsərrüfatının potensialından danışıb: "İşğaldan əvvəl Azərbaycanda taxıl istehsalının 14 faizi, tütünün 8 faizi, ət və südün 15 faizi bu ərazilərdə istehsal olunub".

**Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev qeyd edib ki, Şuşada ilin sonunda "DOST" mərkəzlərinin fəaliyyətə başlayacağı gözlənilir:** "Cəbrayılda regional "DOST" Mərkəzinin, Kəlbəcərdə Reabilitasiya Mərkəzinin yaradılması nəzərdə tutulur. Bundan əlavə, azad edilən ərazilərdə yaşayan vətəndaşlarımızın məşğulluğu təmin ediləcək".

**"Zəngəzur dəhlizi ilə elektrik enerjisi Avropaya ötürüləcək"**

**Energetika naziri Pərviz Şahbazov nəzərə çatdırıb ki, hazırda Cəbrayılda BP şirkəti ilə birgə 240 KVT gücündə Şəfəq Günəş Elektrik Stansiyasının qurulması ilə bağlı iş aparılır:** "Azad edilmiş ərazilərdə xarici sərmayələrlə işlərin aparılması artıq bir reallıqdır. Azad edilmiş ərazilərdə 50-dən artıq kiçik su elektrik stansiyalarının, Kəlbəcər və Laçında külək elektrik stansiyalarının qurulması nəzərdə tutulur. Zəngəzur dəhlizi Avropaya elektrik enerjisinin nəqlində də mühüm rol oynayacaq". Onun sözlərinə görə, hazırda "yaşıl enerji"nin ənənəvi bazarlarla bərabər Avropaya ixracı üçün nəzərdən keçirilən üç xətdən biri - Azərbaycan-Türkiyə-Avropa Enerji Dəhlizi, bu yeni reallığın perspektivlərindəndir: "Postmünaqişə mərhələsində tarixi və geostrateji əhəmiyyətli Zəngəzur dəhlizinin yaradılması Asiyanı Avropa ilə təkcə nəqliyyat deyil, enerji vasitəsilə də birləşdirmək imkanlarına malikdir".

Nazir deyib ki, elektrik enerjisinin Zəngəzur dəhlizi ilə Naxçıvan Muxtar Respublikasına, oradan Türkiyəyə, sonra isə Avropaya ötürülməsi istiqamətində artıq işlərə başlanıb. Bu aspektdə, "Cəbrayıl" enerji qovşağının yaradılması böyükmiqyaslı energetik və strateji əhəmiyyətli hadisədir: "Bu gün Azərbaycan kimi etibarlı tərəfdaşlara böyük ehtiyac var. Mövcud reallıqlar göstərir ki, Azərbaycanla enerji tərəfdaşlığının genişləndirilməsi Avropa ölkələri üçün strateji prioritetlərdən biridir. Ona görə də bu zonanın "yaşıl enerji" potensialı tərəfdaşlarımızın enerji təhlükəsizliyinin təminatında potensial mənbə qismindədir". Nazir bildirib ki, eyni zamanda, Azərbaycanın "yaşıl enerji" gündəliyinə, enerji keçidi ilə bağlı planlarına güclü maraq və yüksək siyasi dəstək var: "Bu aspektdə, Avropa İttifaqı ilə imzalanmış enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu, Avropa İttifaqı ilə enerji dialoqumuzda bərpa olunan enerji ilə yanaşı enerji səmərəliliyi və karbon emissiyalarının azaldılması üzrə əməkdaşlıq da yer alır. Bu əməkdaşlıq "yaşıl enerji" zonasının yaradılması üçün münasib həllər baxımından önəmlidir".

**"İşğaldan azad edilmiş ərazilərin 10 min MVt bərpa olunan enerji potensialı var"**

**Pərviz Şahbazov deyib ki, işğaldan azad edilmiş ərazilərin bərpa olunan enerji mənbələri üzrə potensialı 10 min MVt-a (meqavat) yaxındır. Onun sözlərinə görə, bu potensial əsasında 4 il ərzində ümumi gücü 780 MVt olan külək, günəş və su elektrik stansiyalarının inşası nəzərdə tutulur:** "Bu istiqamətdə hazırda BP şirkəti ilə Cəbrayılda illik, təxminən, 500 mln. kVt/saat elektrik enerjisi istehsalı proqnozlaşdırılan 240 MVt gücündə "Şəfəq" günəş elektrik stansiyası layihəsi üzrə işlər aparılır. Həmçinin, xarici investor "Masdar" şirkəti ilə quruda və dənizdə ilkin mərhələdə 4 QVt gücündə, növbəti mərhələdə isə 6 QVt gücündə həyata keçirəcəyimiz günəş və külək enerjisi layihələrinin bir qismi məhz bu əraziləri əhatə edir. Bərpa olunan enerji növlərinin azad edilmiş ərazilərdə də xarici investisiya hesabına inkişafı realdır".

**"Hadrut, Tuğ, Suqovuşan və Talış kəndlərinin baş planlarının hazırlanması yekunlaşmaqdadır"**

Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov deyib ki, Hadrut, Tuğ, Suqovuşan və Talış kəndlərinin baş planlarının hazırlanması yekunlaşmaqdadır. Onun sözlərinə görə, indiyədək 260-dan çox şəxs mina partlayışı nəticəsində yaralanıb və həyatını itirib: "Azad edilən ərazilərin 13 faizi minalardan təmizlənib. Bu proses hazırda da davam etdirilir".

**İsmayıl Qocayev**

# XİN təsdiqlədi

## Blinkenin iştirakı ilə Ceyhun Bayramov və Mirzoyan Vaşinqtonda görüşəcək




**ABŞ Dövlət katibi Entoni Blinken, Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov və Ermənistan xarici işlər naziri Ararat Mirzoyan yaxın günlərdə Vaşinqtonda görüşəcək.**

Bu barədə Ermənistan XİN başçısı Ararat Mirzoyan parlamentdə çıxışı zamanı deyib. O görüşün keçiriləcəyi dəqiq tarixi açıqlamayıb.

**"Bəli, həqiqətən də yaxın günlərdə Vaşinqton şəhərində Amerika Birləşmiş Ştatları dövlət katibi Entoni Blinkenin təşəbbüsü və iştirakı ilə Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Ermənistan Respublikasının xarici işlər naziri Ararat Mirzoyan arasında görüşün keçirilməsi planlaşdırılır".**

*Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə bildirib.*

Onun sözlərinə görə, Azərbaycan tərəfinin bu kimi görüşlərin keçirilməsi ilə əlaqədar açıqlamanın verilməsinə dair yanaşması ondan ibarətdir ki, bu barədə ilk elan bir qayda olaraq görüşə ev sahibliyi edən ölkə tərəfindən verilməlidir.

# Məhsulların qiyməti çox artıb

## "Pensiyaların artırılması əslində, inflyasiyaya görə kompensasiyadır, artım deyil"



**"2023-cü ildə əməkhaqlarının və pensiyaların artırılması, əslində, inflyasiyaya görə kompensasiyadır, artım deyil".**

Bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında "2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı deputat Əli Məsimli deyib.

Deputat bildirib ki, bir çox məhsulların qiyməti çox artıb: "Burada qeyd edilir ki, inflyasiyaya səbəb xaricdən qaynaqlanan faktorlardır. Mən xahiş edirəm, açıqlayın ki, hazırda olan inflyasiyanın neçə faizi xarici faktorlardan qaynaqlanır, neçə faizi daxili, neçə faizi isə monopolistlərin etdiyi süni qiymət artımı nəticəsindədir? Gələn il inflyasiyanın 6,9 faiz olacağı deyilir. Amma bizim hesablamalarımıza görə, reallıqda inflyasiya daha çoxdur".

**İsmayıl**

# Gələn il orta aylıq əmək haqqı 898 manat olacaq



**"Azərbaycanda 2023-cü ildə orta aylıq əməkhaqqının 898 manat olması planlaşdırılır".**

Bunu Mlli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında "2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı komitə sədri Tahir Mirkişili deyib. Deputat diqqətə çatdırıb ki, gələn il şəhid ailələri və onların övladları, valideynlərinin muzdlu işdən aldıqları gəlirlərinin 800 manata qədər olan hissəsinin vergilərdən azad olunması nəzərdə tutulur: "2022-ci ilin sonuna qədər Azərbaycanda orta aylıq əmək haqqının 800 AZN, 2023-cü ildə 898 manat olması planlaşdırılır. Bu isə demək olar ki, əmək haqqının böyük bir qisminin vergidən azad olunması deməkdir".

**İsmayıl**

# Hərbi xərclərin artırılması dövlət başçısının nəzarətindədir

## Samir Şərifov: "Ehtiyac yaranarsa, vəziyyətə uyğun olaraq həmin sahəyə əlavə vəsait ayrılması məsələsinə baxıla bilər"



**Dünən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsi müzakirə olunub. İclasda Maliyyə naziri Samir Şərifov, İqtisadiyyat naziri Mikayıl Cabbarov, Azərbaycan Mərkəzi Bankının sədri Taleh Kazımov, Dövlət Gömrük Komitəsi sədrinin sədr vəzifəsini müvəqqəti icra edən Şahin Bağırov, Dövlət Neft Fondunun departament direktoru Müşfiq Bayramov, Hesablama Palatasının sədri Vüqar Gülməmmədov, nazir müavinləri, parlamentdə təmsil olunan siyasi partiyaların sədrləri iştirak ediblər.**

Maliyyə naziri Samir Şərifov deyib ki, bir sıra ölkələrdə yanacağın qiyməti sürətlə artıb, Azərbaycanda isə sabit qalıb. Nazir bildirib ki, bu da Tarif (Qiymət) Şurasının siyasəti ilə bağlıdır: "İnflyasiyaya təsir edən amillərin bəziləri dövlət tərəfindən tənzimlənir. Məsələn, başqa ölkələrdə yanacağın qiyməti ilə bağlı inflyasiya təzyiqi daha da kəskinləşib. Azərbaycanda isə dövlət tərəfindən aparılan siyasət nəticəsində qiymət sabit saxlanılır ki, bu da təsirli amillərdəndir".

**"Gələn il Dövlət Neft Fondunun gəlirləri 9 mlrd. manata yaxın olacaq"**

**Samir Şərifov bildirib ki, gələn il Dövlət Neft Fondunun gəlirləri 8 mlrd. 991 mln. manat olacaq. Fondun xərcləri isə 2023-cü ildə 11 mlrd. 355 mln. manat təşkil edəcək:** "Hərbi xərclərin artırılması, ümumiyyətlə, bu sahənin inkişafı dövlət başçısının daim nəzarətindədir. Ehtiyac yaranarsa, vəziyyətə uyğun olaraq həmin sahəyə əlavə vəsait ayrılması məsələsinə baxıla bilər. Amma bu gün kifayət qədər artım dinamikası müşahidə olunmaqdadır. Sərbəst qalıq məsələsi burada qaldırıldı. Hələ il başa çatmayıb. Bu günə kimi əvvəlki ilin təcrübəsi sərbəst qalığın çox qalmasının müsbət olduğunu göstərir. Ötən il olduqca müsbət işlərin nəticəsində dövlət büdcəsinin gəlirləri daha yüksək olub və büdcə kəsirinin qarşılanmasına yönəldilmişdi. Cari ildə də oxşar vəziyyət müşahidə edilməkdədir. Eyni zamanda dünya bazarlarında bu gün bizim əsas ixrac məhsullarımız olan neft və qaz üçün kifayət qədər münbit şərait mövcuddur. Bunun nəticəsində də dürüstləşmə aparıldıqdan sonra çox daxilolmalar müşahidə edilməkdədir. Bu ilin sonuna sərbəst qalığın istifadəsi nəzərdə tutulmur. Məzənnə sabitliyinin olması üçün Maliyyə Nazirliyi və Mərkəzi Bank arasında çox sıx koordinasiyalı iş aparılır. Biz maraqlıyıq ki, bu sabitliyə hər hansı xələl gətirilməsin".

**"Azərbaycanda xaricdən taxıl asılılığının azaldılması üçün proqram hazırlanacaq"**

**Maliyyə naziri vurğulayıb ki, ölkəmizin idxal olunan ərzaqlardan asılılığının azaldılması istiqamətində Prezident tərəfindən müvafiq tapşırıq var:** "Taxılla əlaqədar asılılığın azaldılması üçün müvafiq proqram hazırlanacaq. Bu istiqamətdə müvafiq addımların atılması nəzərdə tutulub. Bu sahəyə dövlət büdcəsindən ayrılan vəsaitdə 20,5 faiz artım var. Aqrar sahədə subsidiyaların nə qədər düzgün verilməsinə baxmaq lazımdır. Subsidiyalar dövlət büdcəsində nəzərdə tutulub. Bu sahəyə dəstək verilməsi hökumət tərəfindən vacib sayılır. Dünya miqyasında ərzağın qiymətinin artması bizə də mənfi təsir göstərir, eyni zamanda bu, inflyasiyanın artmasına təsir göstərir. Onu da qeyd etməliyəm ki, inflyasiya təkcə Azərbaycana aid deyil. Dünyanın istisnasız bütün dövlətlərində hazırda olduqca böyük inflyasiya təzyiqləri yaşanır. İnkişaf etmiş ölkələrdə son 4 ildə görünməyən inflyasiya səviyyələri qeydə alınır. Bu gün həmin ölkələrdə həyata keçirilən tədbirlərə baxmayaraq, bu səviyyə dəyişmir. Azərbaycanda isə inflyasiyaya qarşı dövlət tərəfindən tədbirlər görülür. Azərbaycanda inflyasiyanı cilovlayan kifayət qədər təsirli addımlar atılır. Digər tərəfdən, Azərbaycanda manatın məzənnəsi sabitdir. Digər ölkələrdə məzənnələrdə xeyli dəyişikliklər baş verir. Dövlət tərəfindən bu sahədə də tədbirlər görülməklə sabit məzənnənin saxlanması üzrə konsensus var".

**"Son 5 ildə Azərbaycanın cari xərcləri 11 milyard manat artıb"**

**Samir Şərifov deyib ki, qeyri-neft gəlirlərində azalma olması fikri ilə razı deyil. Nazir bildirib ki, cari xərclər artıb:** "Bu da düzgündür. Reallıq budur və biz də bunu görürük. Bizim 2017-ci illə müqayisədə cari xərclərimiz 11 milyard manat səviyyəsində artıb. Eyni zamanda həmin bu müddət ərzində baş verən dəyişiklikləri də nəzərə almalıyıq. 2019-cu ildə biz sosial xərclərin əhəmiyyətli dərəcədə artımına getmişik. Bunlar hamısı həmin xərclərin artımına bilavasitə təsir göstərib. Həmin artımların böyük hissəsi - 5 milyard manatdan çox - əməyin ödənişi və digər sosial xərclərə aiddir. Təkcə səhiyyə xərcləri sahəsində xərclərimiz 2,2 dəfə artıb. Çünki hər zaman burada bizim səhiyyə xərclərimizin aşağı olduğu deyilirdi. Buna görə də dövlət tərəfindən səhiyyə sahəsində xərclərin artırılmasına gedilir. Bu gün də dövlət tərəfindən sığortalanan əhalini hər il indeksləşdiririk. Hökumətin cari xərclər siyasəti əksər hallarda sosial faktorlarla bağlıdır".

**"Qarşıdakı dövr üçün büdcə zərfində məlumatların artırılmasına ehtiyac var"**

**Hesablama Palatasının (HP) sədri Vüqar Gülməmmədov deyib ki, qarşıdakı dövr üçün büdcə zərfində məlumatların artırılmasına ehtiyac var. Bunun üçün qanunvericiliyə dəyişiklik edilməlidir:** "Büdcə Zərfinə təbii qazın qiyməti barədə məlumatların da daxil edilməsini təklif edirik. Təbii qazın dünya bazarında qiymətinin artması bunu şərtləndirir".

**Vüqar Gülməmmədov deyib ki, subsidiyaların verilməsində əsas problem torpaqların sənədləri ilə bağlıdır. Palata sədri bildirib ki, subsidiyaların verilməsində bu, çox ciddi məsələlərdən biridir:** "Prezident İlham Əliyevin bu problemin aradan qaldırılması ilə bağlı tapşırığı var".

**"9 ayda manatın nominal kredit məzənnəsi 5 faiz bahalaşıb"**

**Mərkəzi Bankın sədri Taleh Kazımov bildirib ki, yeni pul siyasəti alətlərinin tətbiqi, pul bazarı infrastrukturunun dəqiqləşməsinin müsbət nəticələri var:** "Cari ildə valyuta bazarında tarazlıq qorunub. 9 ayda manatın nominal kredit məzənnəsi 5 faiz bahalaşıb". T.Kazımovun sözlərinə görə, Mərkəzi Bankın maliyyə sabitliyi siyasəti və nəzarət tədbirləri maliyyə sektorunda stabil fəaliyyətə və ödənişlərin fasiləsizliyinə yönəldilib, bank sektorunun dayanıqlığı bütövlükdə diqqətdə saxlanılıb.

**"Sentyabrda yeni pul siyasəti alətlərinin tətbiqinə başlanılıb, pul bazarının infrastrukturu dəqiqləşdirilib"**

**Mərkəzi Bankın sədri deyib ki, sentyabrda yeni pul siyasəti alətlərinin tətbiqinə başlanılıb, pul bazarının infrastrukturu dəqiqləşdirilib. Məqsəd uçot dərəcəsinin kredit faizlərinə və inflyasiyaya təsirini gücləndirməkdir:** "Artıq ilkin müsbət nəticələr var. Bu, banklararası bazarda aktivliyin artmasında, bu seqmentdə faizlərin Mərkəzi Bankın faizlərinə reaksiyasında özünü göstərib".

**"Bu ilin 10 ayında büdcədə 3,8 mlrd. manatlıq profisit olub"**

**Taleh Kazımov bildirib ki, "2022-ci ilin ötən dövründə büdcənin profisiti icrasını dəyərləndiririk.** Belə ki, 2022-ci il üzrə dəqiqləşdirilmiş dövlət büdcəsi layihəsində 3,1 mlrd. manat kəsir nəzərdə tutulsa da, 10 ayda 3,8 mlrd. manatlıq profisit olub".

"İnanırıq ki, 2023-cü ildə də gəlirlərin proqnozu üstələməsi hesabına kəsir planlaşdırıldığı kimi - 2,6 mlrd. manat az olacaq".

**"İnflyasiyanın 85-90 faizi birbaşa və dolayı yolla xarici amillərlə bağlıdır"**

**Mərkəzi bank rəhbəri hesab edir ki, inflyasiyanın 85-90 faizi birbaşa və dolayı yolla xarici amillərlə bağlıdır. O bildirib ki, Mərkəzi Bankın əsas işi məzənnə siyasəti, makroiqtisadi sabitliyin təmin edilməsidir:** "Məzənnə rejimi bizim pul siyasətimizin bir hissəsidir. Mərkəzi Bank və hökumət düşünür ki, məzənnənin sabit rejimi ən əlverişli rejimdir. Növbəti ildə büdcədə də Mərkəzi Bank sabit məzənnə rejiminin qorunmasına çalışacaq, bunun üçün əlindən gələni edəcək".





**"Banklararası köçürmələrdə komissiyaların tutulması məsələsinə baxılacaq"**

**Taleh Kazımov qeyd edib ki, kənd təsərrüfatı sahəsində kreditlər ən problemli portfellərdən biridir. O bildirib ki, girovsuz 50 min manata qədər kredit verilməsi problem yarada bilər:** "Amma balanslaşdırma aparılması mümkündür. Banklararası köçürmələrdə komissiyaların tutulması məsələsinə də baxılacaq. Bu komissiyaların hesabına banklar nağdsız əməliyyatları təşviq edir. Yəni bunun hesabına istehlakçılara "cash back" verirlər. Bu gün Azərbaycan bu sahə üzrə regionda ən yüksək göstəricilərə sahibdir".

**"İnvestisiya fondlarının yaradılmasına ehtiyac var"**

**MB sədri bildirib ki, banklarda faiz dərəcələri onun cəlb etdiyi vəsaitlərin dəyərindən formalaşır. O deyib ki, 9 ayın nəticəsinə uyğun ilk olaraq orta kredit faizləri 14,3 faizdir:** "Marja böyükdür. Bu gün bank sektorunda 5 milyard manatdan çox sərbəst pul var. Biz burada fundamental məsələlərə baxmalıyıq. Kreditə tələbatın yaradılmasını düşünməliyik. Kreditlərə tələbatın artırılması istiqamətində stimullaşdırıcı amilləri nəzərə almalıyıq. İnvestisiya fondları ilə bağlı düzgün qeydlər oldu. Növbəti ildən qanunların təkmilləşdirilməsini düşünürük, investisiya fondlarının yaradılmasına ehtiyac var. Biz investisiya fondları yarada bilərik. Girovlarla bağlı çətinliklərin olduğu ilə də razıyam. Bu sahədə görüşlər, müzakirələr aparacağıq".

**İsmayıl Qocayev**

# Yekun sülh sazişi dekabrda reallaşa bilər

## Artıq Paşinyan da Azərbaycan və Türkiyə ilə münasibətlərin qurulması üçün əngəlin qalmadığını bəyan edir

**Ermənistan Baş naziri Nikol Paşinyan ötən gün hökumətin iclasında Türkiyə ilə münasibətlərdən danışıb. O bildirib ki, Ermənistan Türkiyə ilə kommunikasiya məsələsindəki çətinliklərin öhdəsindən gələ bilib. Paşinyan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla apardığı danışıqları və iki ölkənin xüsusi nümayəndələrinin təmaslarını xatırladıb: "Baş verənlər mühüm dəyişiklikdir".**



Baş nazirin sözlərinə görə, artıq nəinki hakimiyyət, hətta cəmiyyət səviyyəsində də Türkiyə ilə əlaqələr barədə dilemma yoxdur.

Ermənistan Xarici işlər naziri Ararat Mirzoyan da Türkiyə ilə danışıqlarda irəliləyiş gördüyünü deyib. Bildirib ki, xüsusi nümayəndələrin iki ölkə sərhədlərinin üçüncü ölkə vətəndaşları üçün açılması barədə anlaşması var: "Proses davam edir. Ümid edirik ki, bu, yaxın zamanlarda müsbət nəticələrə gətirib çıxaracaq".

Türkiyə parlamentinin erməni əsilli deputatı Qaro Paylan da yazıb ki, Türkiyə-Ermənistan sərhədini açmağın vaxtıdır: "Ermənistandan qayıdıram. Düşünürəm ki, Ermənistanla Azərbaycan arasında möhkəm sülhün bərqərar olması və Türkiyə-Ermənistan sərhədinin açılmasının vaxtıdır. Müharibələrdə hamımız itirdik. İndi sülhə can ataq və birlikdə qalib gələk".

Xatırladaq ki, Paylan bir neçə gün əvvəl Ermənistanda olub, burada Baş nazir Nikol Paşinyan, Prezident Vaaqn Xaçaturyan, parlamentin spikeri Alen Simonyan, həmçinin sabiq prezidentlərlə görüşüb. Müzakirələrin əsas mövzusu Ermənistan-Türkiyə münasibətlərinin normallaşması olub.

Son vaxtlar Ankara ilə İrəvan arasında diplomatik münasibətlərin bərpası istiqamətində atılan addımlar aydın hiss olunur. Əlbəttə, bu məsələdə Bakının da rolu var. Ermənistan hakimiyyəti anlayır ki, Türkiyə ilə diplomatik münasibətlərin bərpasından sonra Azərbaycanla münasibətlərin normallaşması prosesi daha sürətli gedəcək. Ümumiyyətlə, Ermənistan Türkiyə ilə diplomatik münasibətlərin bərpasında maraqlı görünür. Əslində başqa real alternativi də yoxdur. Son vaxtlar İrəvanla Moskva arasındakı münasibətlərdə ziddiyyətlər yaşanır. Üstəgəl, Şərqi Avropada davam edən savaş Ermənistan hakimiyyətini ciddi narahat edir. Müharibənin necə nəticələnəcəyindən asılı olmayaraq, İrəvanı ancaq təhlükə gözləyir. İndi Ermənistan baş naziri üçün ən çətin məsələlərdən biri daxildəki radikal kəsimi Türkiyə ilə diplomatik münasibətlərin bərpasına hazırlamaqdır. Paşinyan onları inandırmalıdır ki, həqiqətən başqa yol yoxdur.

**Politoloq Elçin Xalidbəyli "Şərq"ə açıqlamasında bildirib ki, Praqa Bəyannaməsinin imzalanmasından və üçtərəfli Soçi görüşündən sonra Cənubi Qafqazda geopolitik situasiya tədricən aydınlaşmağa başlayıb.** Xüsusilə də Cənubi Qafqazda sülh prosesinin mümkün istiqamətləri demək olar ki, dəqiqləşmiş kimi görünür. Analitikə görə, məsələ ondadır ki, Ermənistan Baş naziri Nikol Paşinyan BMT Nizamnaməsinə və Alma-Ata Deklarasiyasına istinad edilən Praqa Bəyannaməsini imzalamaqla, Azərbaycanın ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını rəsmən tanımış oldu: "Bu sənədin imzalanmasından sonra rəsmi İrəvan son ümidlərini məhz üçtərəfli Soçi görüşünə bağlamışdı. Ancaq Rusiyanın Ermənistana verdiyi görüşöncəsi vədlərə baxmayaraq, Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyətli mövqeyi həmin ümidləri də boşa çıxardı. Baş nazir Nikol Paşinyan Soçi görüşündə də Azərbaycanın ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını tanıdığını növbəti dəfə rəsmən təsdiqləmək məcburiyyətində qaldı. Bununla da Rusiyanın vasitəçiliyinin sona çatdığı, Kremlin vədlərindən Ermənistan üçün yaxşı heç nə gözlənilmədiyi tam şəkildə ortaya çıxdı. İndi rəsmi İrəvan yenidən Brüssel platforması üzrə Azərbaycan ilə anlaşmaq məcburiyyətində olduğunu daha yaxşı anlayır. Paşinyan hakimiyyəti başa düşür ki, Ermənistanı xilas etmək baxımından, Azərbaycan və Türkiyə ilə eyni vaxtda anlaşma qaçılmazdır. Bu iki proses bir-birinə paralel şəkildə inkişaf edir. Rəsmi Ankara artıq dəfələrlə bəyan edib ki, Türkiyə Ermənistanla müzakirələrdə atdığı bütün addımları Azərbaycan ilə razlaşdırır. Yəni rəsmi İrəvanın Türkiyə ilə danışıqlarda irəliləyiş əldə etməsi Azərbaycan-Ermənistan sülh prosesinə hər hansı problem yaratmır. Əksinə, bu, o deməkdir ki, Azərbaycan və Ermənistan arasında yekun sülh sazişinin imzalanması prosesində də müəyyən müsbət irəliləyişlər mövcuddur. Hətta Azərbaycan-Ermənistan yekun sülh sazişinin məhz Gürcüstanın paytaxtı Tbilisidə imzalanmasına hazırlığın başlanması barədə ciddi məlumatların olduğu bildirilir".

**E.Xalidbəylinin sözlərinə görə, bütün bunlar göstərir ki, Paşinyan hakimiyyəti Türkiyə ilə münasibətlərin normallaşdırılmasının Ermənistan üçün açılmaz olduğunu artıq qəbul edib:** "Ona görə də Baş nazir Nikol Paşinyan həm rəsmi İrəvan, həm də Ermənistan cəmiyyəti üçün Türkiyə ilə yeni və faydalı münasibətlər dövrünün başladılmasına qarşı hər hansı əngəlin olmadığını bəyan edir. Yəqin ki, yaxın vaxtlarda bu istiqamətdə ciddi addımlar müşahidə edilməyə başlayacaq. Ancaq bütün bunlar böyük ehtimalla Azərbaycan və Ermənistan arasında yekun sülh sazişinin imzalanmasından sonraya təsadüf edəcək. Yekun sülh sazişinin imzalanması isə təxminən noyabrın sonu və ya dekabrın əvvəllərində reallığa çevrilə bilər. Rəsmi Ankaranın Türkiyə-Ermənistan sərhədlərinin açılması üçün əsas şərti məhz yekun sülh sazişinin imzalanmasından ibarətdir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da açıq şəkildə bildirmişdi ki, rəsmi Ankara üçün elə bir ciddi problem yoxdur, Ermənistan Azərbaycanla sülh sazişini imzaladığı təqdirdə, iki ölkə arasında sərhədlər açıla bilər. Bu baxımdan, Baş nazir Nikol Paşinyanın Türkiyə ilə münasibətlərin normallaşdırılması istiqamətində ciddi dəyişikliklərin olduğunu bildirməsi, həm də Azərbaycanla sülh sazişinin imzalanmasına artıq çox yaxınlaşılması anlamı daşıyır".

**İsmayıl Qocayev**



## İnternetin, telefonun, hər şeyin qiyməti artır

### Tahir Kərimli neftdən gələn gəlirlərdən xalqa kömək edilməməsinə diqqət çəkib

**"Bəzi ölkələrdə neftdən gələn gəlirlərdən əhaliyə birdəfəlik yardımlar edilir, bizdə niyə edilmir?".**

**Bu barədə parlamentin iclasında çıxış edən millət vəkili Tahir Kərimli deyib.**

Deputat bildirib ki, dövlət büdcəsində 21-ci əsr tələblərinə uyğun təhsil sisteminin təmin olunacağı qeyd edilir: "Necə nail olunacaq buna, kim təmin edəcək bunu? 2021-ci ilin iyulun 1-nə qədər Azərbaycanda məşğul olan əhali sayı 5 milyon 334 min nəfərdir. Bunun da 1 milyon 720 mini dövlət və qeyri-dövlət sektorunda işləyir. Biz bilirik ki, neft sektorunda 30 min insan işləyir. Əvvəl bu rəqəm 80 min idi. Deyin görək, 3.6 milyon insan haradadır? Neyləyir? Nə işlə məşğul olur?".

Deputat bildirib ki, hər dəfə büdcəyə kənd təsərrüfatı hissəsində balıqçılıq fəaliyyəti salınır: "Amma ölkədə balıqçılıq yoxdur. Bizim Xəzər boyda dənizimiz var, amma balıqçılıq yoxdur".

**Tahir Kərimli neftdən gələn gəlirlərdən xalqa kömək edilməməsinə diqqət çəkib:** "İnflyasiya arta-arta gedir. Bəzi ölkələrdə neftdən gələn gəlirlərdən əhaliyə birdəfəlik yardımlar edilir. Bizdə niyə edilmir? İnternetin, telefonun, hər şeyin qiyməti artır".

**İsmayıl**

# Rusiya Zəngəzur dəhlizinin açılmasında maraqlıdır

## Çünki məhsullarının birbaşa Avropaya çıxarılmasına imkan yaranır

"Beləliklə, Azərbaycanın Naxçıvan, Türkiyə ilə əlaqəsi formalaşacaq. Nəticədə türk qurşağı yaranacaq"

**"Soçi görüşündə üstünlük və qələbəmiz Azərbaycan Prezidenti İlham Əliyevin rusiyalı həmkarı Vladimir Putinin üzünə "Qarabağ münaqişəsi bitib, artıq müzakirə olunacaq məsələ yoxdur. Biz yalnız Ermənistanla sülhü müzakirə edə bilərik" kimi açıqlama verməsindən ibarətdir".**

*Bu sözləri "Şərq"ə açıqlamasında Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları" Mərkəzinin sədri, politoloq Samir Hümbətov deyib. O, diqqətə çatdırıb ki, sözügedən açıqlamalar xüsusi önəm daşıyır:*



"Zəngəzur dəhlizinə gəlincə isə M.Zaxarova "mətbəxdə" olan insandır. Məlumatlıdır. Rusiya Zəngəzur dəhlizinin açılmasını istəyir. Lakin öz şərtləri daxilində həyata keçirməyə çalışır. Maraqlarına uyğun şəkildə addım atılmasını istəyir. Nəzərə alaq ki, Ermənistanın Baş naziri Nikol Paşinyan Soçi səfəri zamanı Putinlə görüşündə orada 6 şərt səsləndirdi.

Onlardan biri də məhz açılacaq yeni yolun (dəhlizin) nəzarətinin ermənilərə keçməsidir. Əlbəttə, Rusiya sözügedən tələblərə razı deyil. Mərkəzi Asiyadan başlayaraq, bütün ərazilərdə yerləşən kommunikasiya xətlərini nəzarətində saxlamağa çalışır. O baxımdan Ermənistanın bu cür absurd iddialarını qəbul etmədi.

Zaxarovanın çıxışında müəyyən qədər həqiqətə yaxınlıq var. Bu gün rəsmi Moskvada olan ciddi sanksiyalar Rusiyanın öz məhsullarının birbaşa Avropaya satışına imkan vermir. Zaxarovanın da açıqlaması Qərblə əlaqə birbaşa kəsilibsə, bunu Azərbaycan-Türkiyə üzərindən edə bilmək düşüncəsinə xidmət edir.

Ona görə də Rusiya nümayəndəsinin söylədiklərinin perspektivi var. Amma əlbəttə ki, rəsmi Moskva məcbur qalmasa, Rusiya-Ukrayna müharibəsi olmasa idi, şimal qonşumuz Zəngəzur koridorunun açılması məsələsini ümumiyyətlə, nəzərdən keçirməzdi.

Çünki ona sərf etmir. Dəhlizin açılması bir daha bağlanmayacağı anlamına gəlir. Beləliklə, Azərbaycanın Naxçıvan, Türkiyə ilə əlaqəsi formalaşacaq. Nəticədə türk qurşağı yaranacaq".

*Qeyd edək ki, Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib ki, Soçidə nəqliyyat kommunikasiyalarının açılması məsələsi müzakirə olunub. O həmçinin Zəngəzur dəhlizinin perspektivləri barədə də danışıb.*

**Sücayət Mehti**

# Molla rejimi yalandan özünə düşmən obrazı yaradır

## İranın təhdidləri ancaq daxildəki iğtişaşları unutdurmaq, diqqəti yayındırmaq üçündür

**İran hakimiyyəti Qum şəhərində şiə müsəlmanları üçün müqəddəs sayılan Cəmqəran məscidinin günbəzi üzərində qırmızı bayraq qaldırıb.**

İran mediasına istinadən bildirilən məlumata görə, bu, İranda müharibə elan etmək anlamına gəlir və qisas almaq üçün xəbərdarlıq əlaməti hesab olunur. Qeyd edək ki, qırmızı bayraq ilk dəfə Qasim Süleymaninin ölümündən sonra ABŞ-ın İrana qarşı "müharibə elanına cavab" olaraq qaldırılmışdı.

İranın "FarsNews" dövlət agentliyinin məlumatına görə, qırmızı bayraq Səudiyyə Ərəbistanının İranın ehtimal edilən hücumundan narahatlıq keçirməsinə cavab olaraq qaldırılıb.

**Politoloq Tural İrfan isə "Şərq"ə açıqlamasında deyib ki, İran hakimiyyəti başını itirib. Demək olar ki, bütün dünyanı özlərinə düşmən ediblər. Daha doğrusu, bütün dünyaya qarşı düşmənçilik siyasəti yürüdürlər:** "Əvvəla, o bayrağın qaldırılması formal xarakter daşıyır və islamda belə bir qayda yoxdur. İran uzun illərdir, guya, İsrailə və ABŞ-a düşməndir, ancaq biz bunu real olaraq görmürük. Bu, sadəcə xalqı təsir altında saxlamaq üçün İran rejiminin xarici düşmən obrazı yaratmasıdır. Məsələn, bu gün Azərbaycana qarşı irəli sürdüyü təhdid mesajlarında ölkəmizi İsraillə əlaqələrə görə şantaj edir. Guya, İsrail İranla sərhəddə baza quracaq. İranın təhdidləri ancaq daxildəki iğtişaşları unutdurmaq, diqqəti yayındırmaq üçündür. İran həmişə özünə xarici düşmən obrazı uydurur və formal olaraq ona qarşı sözdə hədə gəlir. Ancaq onlar indiyəcən yalnız müsəlman ölkələrinə ziyan vurublar. Məlum bayrağın qaldırılması da Səudiyyə Ərəbistanına qarşı guya savaş açacaqları ilə bağlıdır. Azərbaycana qarşı əsla o fikrə düşə bilməzlər. Çünki bu olarsa İran adlı dövlət yer üzündən silinəcək. Qardaş Türkiyənin qulağının dibində İsrail və Pakistan ilə müttəfiq olan Azərbaycana qarşı güllə atmaq bu gün iğtişaşlar içində çırpınan İran üçün deyil. İran daxilində baş verən üsyanlar artıq ciddi hal alır. Xalqın etirazını guya xarici dövlətlər tərəfindən körükləndiyi görüntüsü yaradır. Ermənistanla əlaqələrin sıxlaşması, Paşinyanın Quran ayələri ilə qarşılanması, İran Prezidentinin Paşinyana "Hacı Ağa" deyə müraciət etməsi suda boğulanın saman çöpündən yapışması anlamı daşıyır. Ümumiyyətlə deyə bilərəm ki, İranın gizli dayaqları olan Fransa kimi Qərb dövlətləri olmasa rejim bir gün də qala bilməz".



**Şəymən**

# İranın təhdidləri artan xətt üzrə davam edir

## Lakin bu təhdidlərin bölgədəki şərtləri dəyişdirməyəcəyi də məlumdur



**"Xüsusi Təyinatlı Qüvvələrin cənub sərhədlərində təliminin İranın hərbi təlimlərinə cavab olduğu məlumdur". Bu sözləri "Şərq"ə siyasi şərhçi Asif Nərimanlı deyib. Ekspert bildirib ki, burada diqqətçəkən məqam başqadır:**

"İranın indiyə qədər Azərbaycana qarşı irəli sürdüyü bütün təhdidlərə rəğmən, rəsmi Bakı barışdırıcı mövqe tutur, diplomatik gedişlər edirdi. İndi ilk dəfədir ki, hərbi təhdidə qarşı hərbi müstəvidə cavab verilir. Bunun birdən çox səbəbi var. Birincisi, İranın mövcud rejimi Azərbaycanın bütün xoş niyyətinə rəğmən təhdid ritorikasından əl çəkmir. Əksinə, barışdırıcı, uzlaşdırıcı mövqeni "geriçəkilmə" kimi qəbul edərək, Bakının üzərinə gəlməyə davam edir. İkincisi, İranın Azərbaycan ərazisinə qarşı mümkün müdaxilə perspektividir. 44 günlük müharibədən sonra İranın təhdidləri artan xətt üzrə inkişaf edir. Lakin bu təhdidlərin bölgədəki şərtləri dəyişdirməyəcəyi də məlumdur. Bunun fonunda molla rejiminin müdaxilə etməsi senarisi də nəzərə alınmalıdır. İran rəsmiləri və siyasətçilərinin çağırışlarının bu istiqamətdə olması da təsadüfi deyil. Bakı mümkün təhdidlərə və risklərə qarşı hərbi müstəvidə hazırlıq aparır. Bu həm də o deməkdir ki, Azərbaycan İranın təhdidləri qarşısında öz maraqları və strateji xəttindən geri çəkilməyəcək. Araza "körpü atan"lara qarşı Vətən müharibəsində döyüş sənətini yenidən yazan XTQ-nin kazarmalardan çıxarılması da adekvat "əzələ nümayişi"dir. İran "Yaşma"nı tanımaq istəyirsə, qardaşı Ermənistandan soruşa bilər".

**İsmayıl**



# Bütün təxribatların qarşısı alınacaq

## Xüsusi Təyinatlılar döyüş qabiliyyətini artırır

**"Cənub sərhədində xüsusi təyinatlıların hərbi təlimləri keçirilir. Təlimlər zamanı Xüsusi Təyinatlı Qüvvələr (XTQ) özəl tapşırıqlar icra edəcəklər. Bu tapşırıqları yerinə yetirərkən onları dəstəkləyən digər qoşun növləri və bölmələr ilə əlaqədə olacaqlar".**

**Bunu "Şərq"ə açıqlamasında ehtiyatda olan polkovnik Şair Ramaldanov deyib.**

O bildirib ki, təlim XTQ-lərin döyüş qabiliyyətinin artırılmasına hesablanıb: "Kəlbəcər istiqamətində düşmən təxribatının qarşısı alınarkən XTQ dəqiq atəş vasitələrilə müştərək şəkildə yüksəklikləri düşməndən azad edib. Yeni avadanlıq və sursatlardan təlimlərdə iştirakı təmin edilir. Təlimlər cənubda keçirildiyi üçün İran fonunda fikirlər səsləndirilir.

İranın Azərbaycan sərhədində apardığı təlimlər, rəhbərliyimizi əlavə tədbirlər görməsinə məcbur edir. Bu təlimlər heç bir dövlətə yönəlməyib. Azərbaycanın daxili işidir. XTQ-nin yaxın zamanlarda Gürcüstan və Türkiyə ilə birgə təlimləri də baş tutmuşdu.

Azərbaycan Ordusu, XTQ vəzifəsini yerinə yetirməyə hər zaman hazırdır. Dövlət başçısı İlham Əliyevin bütün döyüş tapşırıqları reallaşıb. Azərbaycanın ərazi bütövlüyünə təhdid yaranarsa, adekvat tədbirlər görüləcək".

*Qeyd edək ki, müdafiə nazirinin təsdiq etdiyi 2022-ci il üçün döyüş hazırlığı planına əsasən Azərbaycan Respublikasının cənub sərhədlərinə yaxın ərazilərdə Xüsusi Təyinatlı Qüvvələrin hərbi hissələrinin təlimi başlayıb.*

**Aygün Tahir**

# "Gürcüstanda müzakirə olunan qanun layihəsi qüsurludur"

## Tural Abbaslı: "Bir iş adamı hansısa siyasi partiyaya dəstək vermək istəyirsə, bunun qadağan edilməsi doğru deyil"



**Gürcüstan parlamenti "oliqarxsızlaşdırma qanunu"nu I oxunuşda qəbul edib. Hakimiyyət qanun layihəsinin Ukraynadakı bənzəri əsasında hazırlandığını və oxşar məzmuna malik olduğunu bəyan edib. Layihəyə görə oliqarx ictimai həyatda nəzərəçarpan iqtisadi və siyasi çəkisi olan fiziki şəxsdir.**

Ona görə də oliqarxlar xüsusi dövlət reyestrinə daxil ediləcəklər. Reyestrin yaradılması və tətbiqi də daxil olmaqla əlaqəli qaydalar Gürcüstan parlamenti tərəfindən təsdiq ediləcək. Qanun layihəsinə görə, oliqarx kimi təsdiqlənmiş şəxslərin xüsusilə də siyasi sahə ilə əlaqəli müəyyən maliyyə fəaliyyətləri məhdudlaşdırılacaq. Belə ki, onların siyasi partiyaları dəstəkləmək məqsədilə müəyyən dotasiyalar etməsinə, seçki prosesində siyasi partiyaları, siyasi kampaniyaları maliyyələşdirməsinə, siyasi tələblərlə nümayiş və toplantılar keçirməsinə, həmçinin özəlləşdirmə zamanı dövlətə məxsus genişmiqyaslı müəssisələri satın almasına icazə verilməyəcək. Layihəyə əsasən "oliqarxsızlaşdırma qanunu" tətbiq edildiyi vaxtdan etibarən 10 il müddətində qüvvədə olacaq. Xatırladaq ki, "oliqarxsızlaşdırma qanunu"nun qəbul edilməsi Aİ-nin Gürcüstana namizəd statusu verilməsi üçün 12 tövsiyəsindən biridir. Qonşu ölkədəki qanun layihəsi Azərbaycan ictimaiyyətində də müzakirələrə səbəb olub. Sosial şəbəkə istifadəçilərinin əksəriyyəti eyni qanun layihəsinin bizim üçün də zəruri olduğunu bəyan ediblər.

**AĞ Partiya sədri Tural Abbaslı isə "Şərq"ə açıqlamasında deyib ki, o, Azərbaycanda nə vaxtsa Gürcüstandakı kimi qanun layihəsinin gündəmə gələcəyinə və qəbul ediləcəyinə inanmır. Partiya rəhbəri düşüncəsinin səbəbini bu cür açıqlayıb:** "Milli Məclisdə, yəni qanunverici orqanda əyləşən deputatların 70 faizi oliqarxdır. Oliqarxlar adətən dövlətin imkanlarından, resurslarından faydalanaraq varlanan insanlardır. Əslində Azərbaycanda məmurluqdan oliqarxlığa doğru gedən yollar qanunvericiliklə məhdudlaşdırılıb, qadağan edilib. Yəni tam olmasa da, bənzər məhdudiyyətlər bizdə də var. Məsələn, ölkə qanunlarında "vəzifədən sui-istifadə" anlayışı mövcuddur. Əgər bu qanun icra olunarsa və hamı üçün keçərli olarsa, onsuz da vəzifəli şəxslər oliqarxa çevrilə bilməyəcək. O cümlədən siyasətə qoşulan şəxslərin bizneslə məşğul olması ilə bağlı qadağalar var. Amma əfsuslar olsun ki, mühüm qanunlarımız sadəcə kağız üzərində qalır. İcraat isə tamam başqadır".

**T.Abbaslı Gürcüstanda müzakirə olunan qanun layihəsinin də ideal olmadığını, qüsurların mövcudluğunu dilə gətirib:** "İnsan varlı və zəngindir deyə onun hüquqları məhdudlaşdırıla bilməz. Yəni bir iş adamı hansısa siyasi partiyaya dəstək vermək istəyirsə, bunun qadağan edilməsi doğru deyil. O baxımdan Azərbaycanın bütün qanunları özünəməxsus, spesifik olmalıdır. Bütün qanunlarımızda məqsəd dövlətin və cəmiyyətin inkişafıdır. Bir daha təkrar edirəm, bizdə qanunların keyfiyyətində deyil, icrasında problemlər var".

**İsmayıl Qocayev**




# Mədəniyyətimizə "oğru"lar daraşıb

## Korrupsiya faktı ilə saxlanan məmurlara ən ağır cəza verilməlidir

**Dövlət Təhlükəsizliyi Xidməti Mədəniyyət Nazirliyində əməliyyat keçirib. Əməliyyat zamanı mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev, nazirliyin Təchizat və əmlak şöbəsinin müdiri İlkin Nəsibov, Protokol şöbəsinin rəisi Kamil Rzayev və digər vəzifəli şəxslər saxlanılaraq istintaqa cəlb ediliblər. DTX-nin keçirdiyi əməliyyatın detalları açıqlanmasa da, nazirliyin yüksək vəzifəli əməkdaşlarının korrupsiya və vəzifə səlahiyyətlərindən sui-istifadə hallarına görə saxlanıldıqları bildirilir.**

O da məlum olub ki, əməliyyat keçirilən gün nazir Anar Kərimov işdə olmayıb. Mətbuatda yer alan məlumata görə, Hesablama Palatası Mədəniyyət Nazirliyində yoxlama aparıb, Anar Kərimovun vəzifədə olduğu dövr təftiş edilib. Yoxlamaların nəticələrinə gəlincə, nazirlikdə külli miqdarda yeyinti faktının üzə çıxdığı iddia olunur. Lakin hələlik bununla bağlı rəsmi məlumat dərc olunmayıb. Qəribə görünsə də, DTX 2020-ci ilin mayında Mədəniyyət Nazirliyində əməliyyat keçirmiş və həmin vaxt nazir müavini Rafiq Bayramov saxlanılmışdı. Korrupsiya olayında adı hallanan Əbülfəs Qarayev 2020-ci ilin mayın 21-də vəzifəsindən azad edilmiş, bir müddət sonra onun yerinə Anar Kərimov gətirilmişdi. İlk baxışda yeni nazirdən gözləntilər müsbət olsa da, cəmi bir ildən sonra belə neqativ halların üzə çıxması təəssüf doğurur. İddialara əsasən, Anar Kərimovun əvvəlki rəhbərliyin yol verdiyi səhvləri təkrarlaması onun tezliklə vəzifəsini itirməsinə səbəb ola bilər.

**Nazirlikdəki əməliyyat barədə Modern.az-a danışan Milli Məclisin deputatı Vahid Əhmədov bildirib ki, ortada korrupsiya faktı varsa, ciddi araşdırılmalı və qanunauyğun şəkildə addım atılmalıdır:** "Bir nazirlikdə iki dəfə eyni hadisə baş verirsə, deməli, hamı məsuliyyət daşıyır. Korrupsiya və rüşvətlə bağlı daha ciddi tədbirlərin görülməsinə ehtiyac var. Dövlət başçısı dəfələrlə korrupsiya ilə bağlı xəbərdarlıq edib. Bundan sonra dərhal müəyyən tədbirlər həyata keçirilir, yoxlamalar aparılır. Ancaq yenə də fikir verirsən ki, korrupsiya hallarına yol verirlər. Açığı, mən düşünürdüm ki, 44 günlük Vətən müharibəsindən sonra korrupsiya ilə bağlı məsələlər bir balaca öz həllini tapar. Təəssüflər olsun ki, mən hazırda onun əksini gördüm. Bu, bizim millətimiz və dövlətimizin təhlükəsizliyi üçün ciddi problemdir. Mənimsəmə halları ciddi araşdırılmalı, dövlət büdcəsi üzrə nəzarət mexanizmi gücləndirilməlidir. Hesablama Palatası daha ciddi yoxlamalar aparmalıdır. Yoxlamanın nəticələri ciddi müzakirə obyektinə çevrilməlidir. Şəffaflıq təmin olunmalıdır. Qeyri-hökumət təşkilatları yoxlamalara çağırılmalıdır". V.Əhmədov xüsusilə vurğulayıb ki, korrupsiya şübhəsi ilə saxlanan məmurlar ağır cəzaya məhkum edilməlidirlər: "İşğaldan azad olunmuş ərazilərdə quruculuq işləri gedir. Bura böyük vəsaitlər xərclənməlidir. İri layihələr həyata keçiriləcək. Yəni bu, ciddi məsələdir. Cinayətə bulaşmış insanlar sözün əsl mənasında cəzalarını almalıdırlar. Yoxsa görürsən ki, adam bir-iki il həbsdə yatır, çıxdıqda yenə öz kefi ilə hərəkət edir". Anar Kərimovun işdən çıxarılması ehtimalına gəlincə, deputat araşdırmanın nəticəsindən sonra hər şeyin bəlli olacağını vurğulayıb: "Nazirin vəzifədən kənarlaşdırılması Prezidentin səlahiyyətində olan məsələdir. Doğrudur, nazir müavini, digər vəzifəli şəxslər saxlanılıblar. Ancaq saxlanılma səbəbi ilə bağlı dəqiq fakt yoxdur. Nəyə görə saxlanıldıqları ilə bağlı məlumat verildikdən sonra hansısa qərar veriləcək. Bu, daha doğrudur. Nazir hələ təzədir, araşdırmalardan sonra hər şey bilinəcək".

Anar Kərimov 2021-ci ildən mədəniyyət naziri vəzifəsində çalışır. O, daha öncə Azərbaycanın UNESCO yanında daimi nümayəndəsi olub. Mədəniyyət Nazirliyində aşkarlanan yeyinti halları həqiqətən də heyrət doğurur. Bu, yeyinti, korrupsiyanın daha çox yollarda olduğu qənaətini də sarsıdır. Demək ki, mədəniyyətimizdə də oğrular varmış.



> Novella Cəfəroğlu: "Vəzifələrə milləti, dövləti sevən insanlar təyin edilməlidir. O insanlar ki, artıq dövlətə bağlılıqlarını, xalqa sevgilərini isbat ediblər"

**Məlum hadisə ilə bağlı "Şərq"ə danışan D.Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri Novella Cəfəroğlu mədəniyyət sahəsindəki yeyintinin, oğurluğun bağışlanmaz olduğunu bildirdi:**

- Hər bir korrupsiya faktı millətdən, dövlətdən oğurluqdur, bu, birmənalıdır. Hər bir belə fakt, korrupsiya halı üzə çıxdıqda da məsuliyyət daşıyan şəxslər həbs edilir, vəzifəsindən kənarlaşdırılır. Mədəniyyət sahəsi niyə önəmlidir, çünki burada məsələ xalqın milli sərvətindən gedir. Başqa hansısa sahədə baş vermiş korrupsiya halını müəyyən qədər aradan qaldırmaq mümkündür. Məsələ maliyyədirsə, hansısa dərəcədə əvəz ediləcək, yerini tutacaq. Amma xalqın milli sərvətlərinə qarşı oğurluq edilirsə, onun yerini doldurmaq olmur. Korrupsiya bir bəladır, onun kökü həm aşağıdan, həm də yuxarıdan kəsilməlidir. Amma bu gün mədəniyyətimizdə oğurluq varsa, deməli, oğurlanan bir millət olaraq hamımızın sərvətidir. Deməli, millətdən oğurluq edilib. Bu, xalqa, millətə və dövlətə qarşı ən ağır cinayətdir. Korrupsiya nədən yaranır? Vəzifəli şəxsin acgözlüyündən və dövləti, milləti sevməməkdən. Məmur əgər xalqını, dövlətini sevən olsa, korrupsiyaya yol verməz, dövlətin, xalqın malının oğurlanmasına razı olmaz. Korrupsiyanın kökü milləti, dövləti sevməklə kəsilər.

**N.Cəfəroğlu vəzifələrə təyinat zamanı əsas meyarın savad, xarici ölkələrdə ali təhsillə deyil, dövlətə bağlılıq, xalqa sevgi olmasının vacibliyini önə çəkdi:**

- Vəzifələrə milləti, dövləti sevən insanlar təyin edilməlidir. O insanlar ki, artıq dövlətə bağlılıqlarını, xalqa sevgilərini isbat ediblər. Belə insanlarımız var. Savadlı, həyat təcrübəsi olan insanlardır. Ən əsası isə uzun illər, hətta müxalif cəbhədə olmaqlarına, tənqidlərlə çıxış etmələrinə baxmayaraq dövləti və milləti sevən insanlar təyin edilməlidir. Dövlətini sevən ondan oğurluq etməz, milləti, xalqı sevən onun milli sərvətlərinə xor baxmaz, qədrini bilər bu sərvətin. Vəzifələrə təyinatda məhz bu meyar əsas götürülməlidir.

**Məlahət Rzayeva**

---

> "Çünki Azərbaycanın öz milli maraqlarını tam bərpa etməsi rəsmi Bakının güclənməsi və regional gücə çevrilməsi deməkdir"

# Türkiyə prosesləri diqqətlə izləyir

## "Ankara rəsmi Bakının regional güclər tərəfindən təklənməməsinə çalışır"

**"Hazırkı proseslərə tək geosiyasi amilləri nəzərə almaqla düzgün qiymət verməkmümkün deyil".**

**Bu sözləri "Şərq"ə açıqlamasında siyasi şərhçi Həşim Səhrablı deyib.**

Onun sözlərinə görə, indiki şəraitdə baş verənlər həm bizim, həm də dünyanın mövcud olan istənilən qaynar nöqtələrindəki regionlara təsir göstərir: "R.T.Ərdoğan və İ.Əliyev arasındakı telefon danışığını da bu müstəvidə qiymətləndirmək lazımdır. Azərbaycanın coğrafi mövqeyinə görə şimal və cənubunda onun inkişafını istəməyən, ölkəmizi bacardıqca özündən asılı hala salmağa çalışan Rusiya və İran kimi böyük dövlətlər var. Belə olan halda, təbii ki, Azərbaycan meydanda tək qaldığı zaman çox ciddi addımlar ata bilməz. Tək bizim dövlət yox, hətta dünyanın ən güclü ölkəsinin belə ona qarşı birləşmiş qüvvə ilə təkbaşına mübarizə aparması çətinləşər. Eynilə Azərbaycanda bu kimi riskləri doğru dəyərləndirir. Ərdoğan və Əliyev arasındakı müzakirələr də məhz bunun bir hissəsidir. Türkiyə yaxşı anlayır ki, indi Azərbaycanı mübarizə meydanında tək qoymaq ölkəmizin müstəqil xarici siyasət yeridə bilməsini tamamən sıfırlayacaq. Bu, həmçinin rəsmi Ankaranın özünün regional və dünyəvi maraqlarına ciddi zərbədir".

**Analitikin qənaətincə, Azərbaycan və Türkiyə prezidentləri arasındakı telefon danışığı, fikir mübadiləsi zamanı Soçi görüşünün diqqətə alınması Türkiyənin prosesləri dəqiqliklə izlədiyini təsdiq edir:**



"Eyni zamanda qardaş ölkə məlum məsələlərdən kənarda qalmaq istəmir. Rəsmi Ankara rəsmi Bakının regional güclər tərəfindən təklənməməsinə çalışır. Həmçinin Qarabağ və digər məsələlərdə güzəştə getməmək, öz milli maraqlarını tam bərqərar etməyə səy göstərir. Çünki Azərbaycanın öz milli maraqlarını tam bərpa etməsi rəsmi Bakının güclənməsi və regional gücə çevrilməsi deməkdir. Hətta bu, həm də numuzda da Azərbaycanın əsas söz sahibinə çevrilməsi Türkiyənin həm bölgədəki, həm də dünyadakı maraqlarına effektiv təsir göstərəcək. Ona görə də hər iki prezidentin bu kimi təmaslarını müsbət qiymətləndirirəm. Əminəm ki, bundan sonra da əlaqələr davam edəcək və hər şey Azərbaycan-Türkiyə müttəfiqliyinin daha da genişləndirilməsinə, inkişaf etdirilməsinə, eyni zamanda bu ölkələrin maraqlarının tam təmin edilməsinə fokuslanacaq".

*Qeyd edək ki, noyabrın 2-də Azərbaycan Prezidenti İlham Əliyev türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğana zəng edib. Telefon söhbəti zamanı Azərbaycan, Rusiya və Ermənistan liderlərinin Soçi görüşü, imzalanmış birgə bəyanat müzakirə olunub. Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin müxtəlif aspektləri ilə bağlı fikir mübadiləsi aparılıb.*

**Sücayət Mehti**

# Ərzaq məhsullarının ƏDV-si endirilməlidir

## "Biz nə qədər maaşları artırsaq da, artan inflyasiyanın qarşısını ala bilməyəcəyik"



**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin dünən keçirilən iclasında millət vəkili Vahid Əhmədov süni qiymət artımı və bank faizlərinin yüksək olmasından şikayətlənib. Parlament üzvü deyib ki, büdcənin xərc siyasətinə baxanda prioritet sahədə müdafiə, səhiyyə və təhsildir. Deputat bildirib ki, amma bir sıra məsələlər var ki, narahatlıq doğurur:**

"Ərzaq təhlükəsizliyi və qiymət artımı əsas narahatlıq yaradan problemlərdəndir. Azərbaycanda 2022-ci ildə kənd təsərrüfatı sahəsinə kifayət qədər vəsait ayırmışdıq. Ümumi götürəndə bu sahəyə 2 milyard manata yaxın vəsait ayrılmışdı. Amma rayonlardakı vəziyyət, istehsal olunan məhsulların satışı gözlənilən kimi deyil. Kənd təsərrüfatı sahəsində subsidiyalar olsa da, problemlər kifayət qədərdir. Gübrənin qiyməti ilə əlaqədar subsidiyanın məbləğinə də baxılmalıdır. Biz ərzaq təhlükəsizliyini təmin etmək istəyiriksə, kənd təsərrüfatının inkişafına diqqəti artırmalıyıq".

**V.Əhmədov Azərbaycanda süni qiymət artımı olduğunu bildirib:** "İnflyasiya nə qədər olsa da, süni qiymət artımı daha çoxdur. Biz bir neçə təklif verdik. Ərzaq məhsullarının ƏDV-si endirilsin. Buna getmək lazımdır. Biz nə qədər maaşları artırsaq da, artan inflyasiyanın qarşısını ala bilməyəcəyik. Sosial müdafiədən söhbət gedirsə, hamı pul almır. Bu da nəzərə alınmalıdır. Bizi narahat edən, əsasən, aztəminatlı təbəqədir. Bu təbəqəyə şərait yaratmaq lazımdır ki, ən azından özlərini gündəlik ərzaqla təmin edə bilsin".

**Deputat qiymət artımının ən çox dərmanlarda müşahidə edildiyini də deyib:** "Baxmayaraq ki, bu qiymətlər dövlət tərəfindən tənzimlənir. Bu sahədə ciddi monitorinqlərə ehtiyac var. Necə olur ki, Türkiyədə olan dərman Azərbaycanda 7-8 dəfə baha satılır? Bu, əhalini ən çox narahat edən problemdir".

Parlament üzvü bank faizlərinin də yüksək olduğunu diqqətə çatdırıb: "Sahibkarların əsas problemi kredit faizlərinin yüksək olmasıdır. Azərbaycanda niyə İnvestisiya Fondu yoxdur? Azərbaycanda investisiya fondları yaradılmalıdır, vəsaitlərdən istifadə etmək lazımdır. 20 faizlə kredit verirlər. Bu çox ciddi problemdir. Bank sahəsində digər ciddi problem girov məsələsidir. 5 il girov götürürlər. Bəs sahibkar 5 il nə etsin? Kredit məsələsini həll etmək lazımdır. Rayonlarda hamı istəyir taxıl əksin. Amma adamların vəsaiti yoxdur".

**İsmayıl**



# İrandan Azərbaycana gələnlərin sayı azalıb

## Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 12 faiz azdır

**İrandan Azərbaycana gələnlərin sayı azalıb. APA Dövlət Turizm Agentliyinə istinadən xəbər verir ki, bu ilin oktyabrında İrandan ölkəmizə 15 257 nəfər gəlib.** Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 12 faiz azdır.

Belə ki, 2021-ci ilin oktyabrında ölkəmizə 17 353 nəfər gəlmişdi.

*Qeyd edək ki, ötən aylara nəzər saldıqda ilk dəfə İrandan gələnlərin sayı ötən illə müqayisədə azalıb.*

# Ölən yoxdur

## Azərbaycanda daha 49 nəfər koronavirusa yoluxub

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 49 yeni yoluxma faktı qeydə alınıb, 37 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən ölən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 823 418 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 813 154 nəfər müalicə olunaraq sağalıb, 9 951 nəfər vəfat edib, aktiv xəstə sayı 313 nəfərdir.

*Ölkədə son sutka ərzində 1 957, hazırkı dövrədək isə 7 327 421 test aparılıb.*

# *Fəxrəddin Altun:* "Qarabağ zəfərindən sonra Türk Dövlətləri Təşkilatı daha da gücləndi"



**Türkiyə 44-günlük müharibə zamanı Azərbaycana hərtərəfli yardım göstərdi, çox ciddi diplomatik addımlar atıldı.**

APA-nın İstanbul müxbiri xəbər verir ki, bu barədə Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin rəisi Fəxrəddin Altun İstanbulda keçirilən "Bir millət- Bir Zəfər" adlı tədbirdə çıxışı zamanı deyib.

O qeyd edib ki, müharibə zamanı dünya kimin işğalçı olduğunu gördü. F. Altun əlavə edib ki, informasiya dəstəyi baxımından media ilə yanaşı vətəndaş cəmiyyəti də aktiv fəaliyyət göstərdi.

"Türk milləti sosial şəbəkələr vasitəsi ilə də böyük dəstək verdi. Beynəlxalq ictimaiyyət Azərbaycanla Türkiyəni təcrid etməyə çalışdı. Azərbaycanlı qardaşlarımız bilsinlər ki, bu yolda əsla yalnız deyillər və biz də Azərbaycanın hər zaman Türkiyənin yanında olduğuna inanırıq. Bu zəfər haqlının və həqiqətin haqsız üzərində qələbəsinin simvoludur. Bizi işğalçı kimi qələmə verməyə çalışdılar. Qarabağ zəfərindən sonra Türk Dövlətləri Təşkilatı daha da gücləndi. Bu şanlı zəfərdən sonra Şuşa, Zəngilan və ümumilikdə Qarabağı bərpa edəcəyik", - deyə Altun vurğulayıb.

*Qeyd edək ki, tədbir Azərbaycanın İstanbuldaki Baş konsulluğu və Tuzla rayonu bələdiyyəsinin birgə təşkilatçılığı ilə baş tutub.*

# Dərman siyasəti çox bərbad vəziyyətdədir

## Süni qiymət artımı yaratmaq üçün bəzən dərmanları qəsdən depolarda saxlayırlar

**Son zamanlar apteklərdə dərman qıtlığı yaşanır. Tələbat olan bəzi dərmanları aptekdə tapmaq olmur. Aptekə üz tutduqda isə həmin dərmanların depoda tükəndiyi, yaxud satışının dayandırıldığı deyilir. Vətəndaşların ehtimalına görə, tələbat olan dərmanları firmalar qəsdən "yoxa çıxardır". Məqsəd isə aptek rəflərində aylarla, illərlə qalıb satılmayan əvəzləyici dərman preparatlarının əhaliyə "sırınmasıdır".**

Səhiyyə naziri Teymur Musayev isə jurnalistlərə açıqlamasında da deyib ki, Azərbaycan bazarında uşaqlara verilən hərarətsalıcı dərman vasitələrinin, xüsusilə də siropların azalmasının ölkəmizlə heç bir əlaqəsi yoxdur.

Onun sözlərinə görə, dünyada həmin dərmanları istehsal edən şirkətlər baza maddədən istifadə edirlər: "Həmin baza maddəni istehsal edən iri farmakoloji şirkətlərin istehsalat xətlərində problem yaranıb. Bu böhran prinsipcə, tək Azərbaycanı deyil, hətta bəzi Avropa ölkələrində də müşahidə olunurdu. Son bir həftə ərzində mövcud problem tamamilə aradan qaldırılıb və həmin dərmanlar Azərbaycana gətirilib. Qısa müddətdə onlar pərakəndə satışa veriləcək".



Həkim-rentgenoloq Aydın Əliyev bildirib ki, apteklərdə hər hansısa dərman çatışmırsa ya onun qiyməti artır, ya da daha baha qiymətə alternativ təklif olunur: "Ölkəmizdə dərman siyasəti çox bərbad haldadır. Yəni bu sahədə dövlət nəzarəti olsa da, neqativ haldadır. Ciddi statistik məlumatlara əsaslanan bir dərman siyasəti təəssüf ki, bizdə yoxdur. Bu işlə özəl şirkətlər məşğul olur. Bildiyimiz kimi özəl sistemdə maddi maraq hər zaman öndədir. Ola bilsin ki, bu, düşünülmüş halda olsun. Yəni apteklərdə bəzi dərman qıtlığı yaransın və onun qiyməti artsın deyə. Dəqiq məlumatım yoxdur, amma təxmini belə bir fikir irəli sürmək olar. Ola bilər ki, süni qiymət artımı yaratmaq üçün həmin dərmanları depolarda saxlayırlar. Artıq bununla müvafiq dövlət orqanları məşğul olmalıdır. Amma dərman məsələsi ticari olmaqdan daha çox strateji məsələdir. Yəni insan sağlamlığı ən prioritet məsələdir. Ona görə də dövlət səviyyəsində bu işlə ciddi məşğul olunmalıdır. Bu işlə məşğul olacaq müvafiq dövlət qurumları var, amma təəssüf ki, onlar bununla məşğul olmurlar".

Həkimin sözlərinə görə, problemin yeganə həll yolu dərmanların öz ölkəmizdə istehsal olunmasıdır: "Ölkədəki apteklərdə bəzi dərmanların yoxa çıxmasının bir səbəbi də dünyada baş verən proseslərlə əlaqəlidir. Bu problemin yeganə həlli xaricdən gətirilən dərmanların öz ölkəmizdə istehsal olunmasıdır. Dərman təchizatının ölkəmizdə zəif olması və xaricdən asılılığımız qıtlığa gətirib çıxarır".

**Şəymən**

# Parlamentdə yer çoxluğu qazandı

## Netanyahunun hökuməti formalaşdırmaq şansı daha çoxdur



**İsraildə 25-ci çağırış Knessetdə səsvermə başa çatıb. Parlament seçkisinin ilkin nəticələri açıqlanıb.**

Mərkəzi Seçki Komissiyası noyabrın 3-də saat 07:58-ə qədər 4 390 375 səsin hesablanmasını açıqlayıb, bütün səslərin 91 faizi hesablanıb.

İlkin nəticələrə görə, "Likud" - 23,41faiz səs, "Yeş Atid" - 17,86 faiz, "Sionut Datit" - 10,44 faiz, "Mahane Mamlahti" - 8,95 faiz, ŞAS - 8,35 faiz, "Yadut HaTorah" - 6,06 faiz, NDI - 4,39 faiz, RAAM - 4,27 faiz, HADASH-TAAL - 3,93 faiz, "Avoda" - 3,56 faiz səs toplayıb.

"Meretz" - 3,16 faiz, "Balad" - 3,01 faiz səslə seçki baryerini (3,25 faiz) keçə bilməyib, lakin buna yaxın olublar.

"Beyt Yequdi" Partiyası isə seçki baryerinə yaxınlaşa bilməyib (1,17 faiz).

Solçu/ərəb partiyalarından hər hansı biri seçki baryerini aşa bilmədiyi halda, sağçı-dini koalisiya öz koalisiyasını yaratmaq üzrə açıq üstünlük qazanır. Bütün Solçu/ərəb partiyaları seçki baryerini aşarsa, koalisiyanın yaradılması xeyli mürəkkəbləşə bilər.

Parlament seçkisində səsvermə hüququna malik olan bütün vətəndaşların 71,3 faizi iştirak edib. Bu, 2015-ci ildən bəri ən yüksək göstəricidir.

Burada Netanyahunun radikal koalisiyasının qələbə qazandığını deyən politoloq İlqar Vəlizadə "Şərq"ə bildirib ki, Netanyahunun hökuməti formalaşdırmaq şansı daha çoxdur: "Çünki onun koalisiyası parlamentdə yer çoxluğu əldə edib. Lakin ortada bir problem var ki, koalisiyaya ultra radikal və kiçik pariyalar dəvət edilib. Amma onlar böyük vəzifələrə əsaslı iddialar irəli sürürlər. Məsələn, biri müdafiə naziri postuna cəhd göstərir, digəri Daxili İşlər Nazirliyi kürsüsünü istəyir. Bu isə Netanyahunu qane etmir. Bu səbəblə də koalisiya daxilində çəkişmələr başlayıb. Netanyahu onlara başqa səlahiyyətləri vermək istəyir. Ancaq onlar İsrail üçün vacib olan vəzifələri tələb edirlər. Xüsusilə radikallığı ilə seçilən Şas Partiyasının lideri Daxili İşlər Nazirliyinin postuna iddialıdır. Netanyahu isə bunu istəmir. Ona görə ki, aparıcı hökumət postlarını bu partiyaların əlinə verməklə, onun nüfuzu həm koalisiya daxilində, həm də siyasi aləmdə azala bilər. Prosesin necə yekunlaşacağını isə zaman göstərəcək".

**Nihat Müzəffər**

# Güney Azərbaycan türkləri də bizimlədir

## Onlar dövlət başçımızın çıxışlarını diqqətlə izləyirlər



**"Ölkə başçısı ilk dəfə deyil ki, dünya Azərbaycanlıları ilə bağlı mesaj verir".**

**Bunu "Şərq"ə açıqlamasında politoloq Sədrəddin Soltan güneyli soydaşlarımızın əski Azərbaycan əlifbası ilə Prezident İlham Əliyevə dəstək mesajı verməsinə münasibət bildirərkən deyib.**

O qeyd edib ki, güneyli soydaşlarımızın dəstək şüarları həm qarşılıqlı həmrəylik, həm də Azərbaycan prezidentinə bir təşəkkürdür: "Ölkə başçısının Dünya azərbaycanlılarının 3-cü qurultayında "Mən 50 milyonluq Azərbaycan türkünün prezidentiyəm" deməsi də bunları təstiqləyir. Yəni bir millətin rəhbəri olmaq, onun hüquqlarının müdafiəçisi olmaq deməkdir.

Dünya azərbaycanlılarının qurultayının Azərbaycanda keçirilməsi isə dünyada yaşayan bütün soydaşlarımızın vətəninin bura olması deməkdir. Bu baxımdan ölkə başçısının çıxışını qurultayda dediklərinin davamı kimi qiymətləndirmək olar.

Digər tərəfdən Prezident İlham Əliyevin çıxışı bütün türk dünyası ilə bağlı idi. Bu həm də Çindəki uyğur türklərinin, Orta Asiyadakı, Əfqanıstandakı və digər regionlardakı türklərin hüquqlarının qorunmasına şamil olunurdu. Ölkə başçısı bu mesajı ilə TDT-ni dünyada və Güney Azərbaycanda yaşayan türklərə laqeyd qalmamağa çağırırdı. Analitik qeyd edib ki, Güneydəki soydaşlarımızın Prezident İlham Əliyevlə bağlı plakatlarını və şüarlarını təbii qarşılamaq lazımdır: "Bu o deməkdir ki, Güney Azərbaycan türkləri, Azərbaycanda baş verən hadisələri və prezidentin çıxışını diqqətlə izləyirlər. Ölkə başçısının dediklərinə xoş münasibət bəsləyirlər. Onlar hesab edirlər ki, Azərbaycan öz vətənləridir və ölkə başçımız da onların prezidentidir. Bu, İranın daxili məsələsinə qarışmaq deyil, sadəcə, qarşılıqlı həmrəylik nümayiş olunur".

**Nihat**



# Qarabağda işləyən mütəxəssislər yüksək maaş alacaq

## İş şəraitinin ağırlığı nəzərə alınaraq eyni sahədə çalışan mütəxəssislər arasında belə bir fərq qoyulmalıdır

**Azad edilən ərazilərdə işləyən mütəxəssislər yüksək maaş alacaqlar. Bununla bağlı Əmək Məcəlləsinə dəyişiklik təklif edilir.**

Dəyişikliklə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində işləyən mütəxəssislərə əmək haqqının yüksək məbləğdə ödənilməsini təmin edən artımlar (əmsallar) müəyyən ediləcək. Əmək haqqına belə artımların (əmsalların) məbləğinin minimum miqdarı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunacaq.

Dəyişiklik layihəsi qəbul olunacağı təqdirdə 2023-cü ilin yanvarın 1-dən qüvvəyə minəcək.

İqtisadçı-ekspert Əyyub Kərimli "Şərq"ə açıqlamasında bildirib ki, ölkəmizdə bu praktikadan artıq istifadə olunur. Güc strukturları və mədənçıxarma müəssisələrində dağlıq bölgələrdə çalışan şəxslərin aylıq əmək haqlarına əlavə əmsallar tətbiq edilir: "Bu yanaşma sadəcə bizdə deyil, bütün dünyada mövcuddur. İş şəraitinin ağırlığı nəzərə alınaraq eyni sahədə çalışan mütəxəssislər arasında belə bir fərq qoyulur. Metropolitendə çalışan mütəxəssislər dəmiryolunda işləyən həmkarlarından daha çox məvacib alırlar. Eyni ilə də SOCAR-da dənizdə işləyən neftçilərlə quru sahəsində fəaliyyət göstərən mütəxəssislərin maaşı arasında müəyyən qədər fərq var. İşğaldan azad olunan rayonlarımızda da infrastruktur və yaşayış şərtləri paytaxt və digər bölgələrimizdəki şərtlərlə eyni olmadığı üçün orada çalışan insanların yüksək maaş alması məqsədəuyğundur. Həmçinin peşəkar və ixtisaslı mütəxəssislərin bölgəyə cəlb olunması baxımından da bu, təqdirəlayiq bir təklifdir. Gəncə və Sumqayıt kimi şəhərlərdə işləyən, səhər işə gedib axşam evinə gələn bir işçi 500-600 manat aylıq əməkhaqqı qarşılığında Qarabağda şəraitsiz ərazidə işləyib, vaqonlarda yaşamaq istəməz axı. Bu insanları ağır şəraitdə işləməyə həvəsləndirmək üçün mütləq yüksək əməkhaqqı təklif olunmalıdır".

**Şəymən**

# İran mollaları üçün çətin günlər başlayır

## Cənubi Azərbaycanın daxili işi artıq Şimali Azərbaycan üçün də prioritet olacaq

**Ermənistan Təbrizdə konsulluq açacaq. Bu barədə Ermənistan XİN başçısı Ararat Mirzoyan parlamentdə çıxışı zamanı bildirib. O, Təbrizlə yanaşı, Rusiyanın Vladiqafqaz şəhərində də konsulluq açılacağını, Kipr və Serbiyada isə diplomatik ofislərin təşkil ediləcəyini əlavə edib.**

Siyasi şərhçi Azər Qasımov "Şərq"ə deyib ki, İranın Ermənistanda konsulluq açmasının diplomatik əlaqələrin inkişafı ilə heç bir əlaqəsi yoxdur. Analitik bildirib ki, Təbrizdə Ermənistan konsulluğunun açılmasına heç bir məntiqi açıqlama vermək mümkün deyil: "Təbrizdə nə qədər erməni yaşayır ki, əlavə konsulluğa ehtiyac yaransın?! İranın müsəlman ölkəsi kimi Şuşada, Füzulidə, 30 ilə yaxın erməni işğalında qalan ərazilərimizdə konsulluq açması daha məntiqli olardı. Amma İran konsulluğu Qafanda açdı. Həm də öz məqsədini gizlətmədən, Azərbaycana güc nümayiş etdirməklə bunu etdi. İranın məqsədi başqadır. Fars rejimi bütün gizli oyunları oynadığına görə indi açıq oynamağa məcburdur. İran rejimi Azərbaycana düşmən olduğunu açıq şəkildə göstərir. İkiüzlü və satqın İran rejiminin uzun illər Ermənistanı gizli şəkildə dəstəklədiyi məlumdur. Rejim Azərbaycanda etnik zəmində qarşıdurma planlayır, buna maddi və mənəvi dəstək verir. Azərbaycan hakimiyyətinə qarşı əsrlərdir birgə yaşadığımız talış və ləzgi xalqlarını üsyana çağırırlar".



***"Ermənistanın müxtəlif yerlərdə konsulluq və diplomatik ofislər açması ilk növbədə Azərbaycanı qıcıqlandırmaq məqsədi güdür"***

**A.Qasımov vurğulayıb ki, Ermənistanın müxtəlif yerlərdə konsulluq və diplomatik ofislər açması ilk növbədə Azərbaycanı qıcıqlandırmaq məqsədi güdür:** "Ermənistan Kipr və Serbiyanın da adını çəkməklə bunun guya adi addım olduğunu, kimsəyə qarşı yönəlmədiyini deməyə çalışır. İran İrəvanı Təbrizdə konsulluq açmağa məcbur edir. Ermənistan da bunun əhəmiyyətini azaltmaq üçün bir neçə yerdə paralel konsulluq açır. Azərbaycan tərəfi fars rejiminə böyük səbr göstərir, təmkinlə yanaşır, amma səbrin də həddi, sonu olur. Azərbaycan xüsusi təyinatlılarının İranla sərhəd ərazidə təlimlərə başlaması, mərkəzi televiziya kanallarında İranın əleyhinə süjetlərin verilməsi, ən əsası isə DTX-nin İran agentura şəbəkəsinə qarşı həbslərə başlaması onu deməyə əsas verir ki, İran mollaları üçün çətin günlər başlayır. İllərlə etdikləri naxələfliklərin cəzasının çəkilməsi vaxtıdır. Azərbaycan heç vaxt İranın daxili işinə qarışmayıb. Amma görünən odur ki, Cənubi Azərbaycanın daxili işi artıq Şimali Azərbaycan üçün də prioritet olacaq".

*Politoloq qeyd edib ki, Azərbaycan dövlətinin İranda yaşayan soydaşlarımızın müdafiəsi üçün ciddi addımlar atmasının vaxtı gəlib:* "İran rejimi sonunu gətirmək istəmirsə, ağlını başına yığsın. Özünü şanlı türk tarixinin İrana bəxş etdiyi böyüklüyə uyğun aparsın. Belə görünür ki, İran dövlətinin adını hər formada batıran, özlərini biabır edən fars şovinizminin sonu yenə türklərin əlindən olacaq".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi;**



# Azərbaycanın ərəb dünyası ilə əlaqələri genişlənir

## Prezident İlham Əliyevin Əlcəzairdə Zirvə görüşündə çıxışı böyük rəğbətlə qarşılanıb

**Noyabrın 1-2-də Əlcəzair Xalq Demokratik Respublikası 4-cü dəfə Ərəb Dövlətləri Liqasının Sammitinə ev sahibliyi etdi. Azərbaycan Prezidenti İlham Əliyev Sammitə Qoşulmama Hərəkatının sədri statusunda fəxri qonaq qismində dəvət olunmuşdu. Ərəb Dövlətləri Liqasının üzvü olan 22 dövlətin rəhbərlərindən başqa Azərbaycan Prezidentinin, eləcə də Birləşmiş Millətlər Təşkilatının (BMT) və İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katiblərinin fəxri qonaq qismində zirvə görüşünə qatılması Prezident İlham Əliyevin beynəlxalq arenada, o cümlədən islam dünyasında yüksək nüfuzunu bir daha sübut edir.**

Prezident İlham Əliyev Zirvə görüşündə çıxışı zamanı vurğulayıb ki, Ərəb Dövlətləri Liqası ilə Azərbaycan arasındakı münasibətlərin xüsusi xarakteri var. Dövlət başçısı xatırladıb ki, o, bir neçə ay öncə Baş katib Əbul Qeyti Bakıda qəbul edib: "Biz gələcək əməkdaşlığımızla bağlı geniş söhbət apardıq. Azərbaycan 2006-cı ildən təşkilatın müşahidəçi statusunda üzvüdür və biz əməkdaşlığımızı genişləndirmək istəyirik. Bu gün mən Sammitdə Qoşulmama Hərəkatının sədri kimi iştirak edirəm, lakin eyni zamanda, bizim Ərəb Dövlətləri Liqasına üzv olan dövlətlərlə çox yaxşı münasibətlərimiz var. Əminəm ki, yaxın gələcəkdə də bizim əməkdaşlığımız genişlənəcək, yeni xarakter və yeni dinamika alacaq. Biz Ərəb Dövlətləri Liqasına üzv olan ölkələrlə ikitərəfli əməkdaşlığa da xüsusi önəm veririk. Biz aramızda olan qarşılıqlı dəstəyi və həmrəyliyi yüksək qiymətləndiririk. Azərbaycan da Əlcəzair kimi işğaldan əziyyət çəkib. Bizim torpaqlarımız otuz il Ermənistanın işğalı altında qalmışdı. Bütün bu işğal illəri ərzində biz həmişə ərəb qardaşlarımızın dəstəyini, İslam Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlərin dəstəyini hiss edirdik. Azərbaycan da öz növbəsində bütün beynəlxalq forumlarda müsəlman qardaşlarımıza öz dəstəyini əsirgəməyib. Biz islam həmrəyliyinə kifayət qədər töhfə vermişik".

Ölkə rəhbəri bəyan edib ki, Qoşulmama Hərəkatının sədri kimi Azərbaycan beynəlxalq arenada mühüm rol oynayır: "120 ölkəni bir araya gətirən Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisatdır. Azərbaycan 2019-cu ildən bu təsisatın sədridir və biz bütün üzv dövlətlərin yekdil səsi ilə seçilmişdik. Bu da bizim mövqeyimizə və siyasətimizə yüksək səviyyəli dəstəyi və rəğbəti nümayiş etdirir. Bizim sədrliyimiz bir daha yekdil qərarla 2023-cü ilin sonuna qədər uzadılmışdır. Biz bunu bir daha siyasətimizə verilən qiymətin əlaməti kimi görürük. Bizim sədrliyimiz COVID-19 dövrünə təsadüf etmişdir və biz bu məsələdə çox fəal idik. Azərbaycan koronavirusla bağlı 80-dən çox ölkəyə maliyyə və humanitar yardımı göstərib. Biz Qoşulmama Hərəkatının Sammitini təşkil etdik". Prezident qeyd edib ki, Azərbaycan Ərəb Dövlətləri Liqasının üzv dövlətlərindən dəstək görür: "Ərəb Dövlətləri Liqasına qardaş ölkə Azərbaycanın Prezidenti, Qoşulmama Hərəkatının Sədri olaraq mən sizi bir daha əmin etmək istəyirəm ki, biz həmrəyliyimizi, birliyimizi daha da möhkəmləndirmək üçün əlimizdən gələni edəcəyik".

Məlumat üçün bildirək ki, Əlcəzair Xalq Demokratik Respublikası ərazisinin böyüklüyünə görə ərəb dünyasında və Afrika İttifaqında ən böyük ölkədir. Əlcəzair əhəmiyyətli təbii qaz və neft istehsalçısı və ixracatçısıdır. Azərbaycan Respublikası ilə Əlcəzair Xalq Demokratik Respublikası arasında ikitərəfli münasibətlərə gəldikdə, xatırlatmaq yerinə düşər ki, bu ölkə 1991-ci il dekabrın 26-da respublikamızın müstəqilliyini tanıyıb. Azərbaycanla Əlcəzair arasında diplomatik əlaqələr isə 1994-cü il aprelin 22-də qurulub. Azərbaycan Respublikasının Əlcəzair Xalq Demokratik Respublikasında (Əlcəzair şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsinə dair Prezident İlham Əliyev 2014- cü il noyabrın 28-də Sərəncam imzalayıb və 2016-cı ildə bu ölkədə səfirliyimiz təsis olunub. Əlcəzairin isə Azərbaycanda diplomatik ofisi 2015-ci ildə fəaliyyətə başlayıb və 2019-cu ildə ölkəmizdə Əlcəzairin səfirliyi təsis edilib. Beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı çərçivəsində fəal əməkdaşlığın həyata keçirildiyini vurğulasaq, deyə bilərik ki, ölkələrimiz arasında əlaqələr yaxşı səviyyədədir. Hər iki ölkənin parlamentləri arasında da dostluq əlaqələri mövcuddur. Azərbaycanla Əlcəzair arasındakı iqtisadi sahədə əlaqələr də önəmlidir. Azərbaycanda xidmət, ticarət və kənd təsərrüfatı sahələrində fəaliyyət göstərən 5 Əlcəzair şirkəti qeydiyyatdan keçib. 1995-2022-ci illər ərzində Əlcəzairdən Azərbaycana 504,9 min ABŞ dolları investisiya qoyuluşu həyata keçirilib. İki ölkə arasında buvaxtadək 5 sənəd imzalanıb, 7 sənədə baxılmaqdadır.

Əlcəzair Universitetinin Beynəlxalq hüquq fakültəsinin professoru Yusif Huri söyləyib ki, Azərbaycan Prezidenti İlham Əliyevin Ərəb Dövlətləri Liqasının 31-ci Zirvə toplantısındakı çıxışı istər Əlcəzair, istərsə də ərəb ölkələrinin siyasətçiləri və politoloqları arasında böyük rezonans yaradıb. Onun sözlərinə görə, dövlət başçısının Qoşulmama Hərəkatının sədri qismində və Sammitin fəxri qonağı statusunda ərəb dünyası üçün bu mühüm tədbirdə iştirakı böyük rəğbətlə qarşılanıb: "Prezident İlham Əliyev ərəb ölkələrində, o cümlədən Əlcəzairdə böyük nüfuza malik olan siyasətçidir. Biz, ölkənizin dostları onun çıxışını diqqətlə dinlədik. Beynəlxalq hüququn və ədalətin üstünlüyünə, sülh və sabitliyə sədaqətini bir daha nümayiş etdirən Azərbaycanın dövlət başçısı vurğuladı ki, onun ölkəsi də Əlcəzair kimi işğaldan əziyyət çəkib, Ermənistanın təcavüzünə və hazırda ondan çox ölkə tərəfindən tanınan Xocalı soyqırımına məruz qalıb. O, BMT Baş katibinin də iştirak etdiyi Sammitdə vurğuladı ki, aparıcı beynəlxalq təşkilatların qərar və qətnamələrinə rəğmən Ermənistan 30 ilə yaxın müddətdə ərazilərin 20 faizini işğal altında saxlamağa davam edib. Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsində nəzərdə tutulmuş özünümüdafiə hüququndan istifadə edərək torpaqlarını güc yolu ilə azad etdi". Prezident İlham Əliyevin Əlcəzairə səfərinin iki dost ölkə arasında əlaqələrin inkişafında yeni mərhələ olacağını qeyd edən professor Y.Huri deyib ki, Azərbaycanın dövlət başçısının Şəhidlər abidəsini və Milli Mücahidlər Muzeyini ziyarət etməsi ölkə ictimaiyyətini məmnun edib: "O, bu barədə Sammitdəki çıxışında da danışdı. Prezident İlham Əliyev vurğuladı ki, Milli Mücahidlər Muzeyini ziyarət edərkən ona Fransanın işğalı zamanı fransızların 5 milyondan çox mina basdırdığı barədə məlumat verilib. Dövlət başçısı bildirdi ki, bu vəziyyət ona öz ölkəsinin də üzləşdiyi analoji problemləri xatırlatdı. Belə ki, Ermənistan işğal zamanı Azərbaycan ərazilərində bir milyondan çox mina basdırıb, bunun nəticəsində müharibədən sonra 260-dan çox azərbaycanlı həlak olub, yaxud yaralanıb".

**Siyasi şərhçi Elçin Mirzəbəyli deyib ki, Qoşulmama Hərəkatının təməl fəlsəfəsini kolonializmə qarşı mübarizə, zülmün, istibdadın qarşısında, haqqın, ədalətin yanında olan xalqların həmrəyliyi, birliyi təşkil edir. Bu baxımdan, Azərbaycanın dünyada mürəkkəb geosiyasi proseslərin cərəyan etdiyi bir zaman kəsiyində Qoşulmama Hərəkatına sədrliyi, bəlkə də tarixi zərurətdən doğan bir reallıqdır:** "Azərbaycanın Qoşulmama Hərəkatını sədrliyi dönəminin sözügedən təsisatda canlanma yaratması təsadüfi deyil. Azərbaycan xalqının milli və bəşəri azadlıq ideallarına sadiqliyi, müstəmləkəçiliyə və onun müasir təzahürlərinə qarşı mübarizə əzmi özünü Prezident İlham Əliyevin Əlcəzairə səfəri çərçivəsində də bir daha nümayiş etdirdi. Fransanın anti-Azərbaycan və ermənipərəst siyasətinə, Emmanuel Makronun və Fransanın digər rəsmi şəxslərinin əsassız və qərəzli bəyanatlarına, Fransa parlamentinin Azərbaycana qarşı qəbul etmək istədiyi sənədlərə Prezident İlham Əliyev Əlcəzairdən kolonial siyasətə, Fransa müstəmləkəçiliyinə öz münasibəti və aydın mesajları ilə cavab verdi. Rəsmi Parisə öz gözündə sezmək istəmədiyi "tiri" göstərdi. Xatırladım ki, Fransa hələ də müstəmləkəçi ölkədir. Müasir Fransanın az qala bütün dünya okeanlarına "səpələnmiş" de-fakto müstəmləkələrinin ərazisi 560 min kv. kilometr təşkil edir. Müstəmləkələrdə müasir Ermənistanın əhalisindən daha çox insan - 3 milyon nəfər yaşayır".

**İsmayıl**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Zəngəzur dəhlizinin açılması reallaşacaq

## “Türkiyə Qafqazda vacib oyunçulardan biridir və onun mövqeyi nəzərə alınmalıdır”




**Noyabrın 2-də Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib.**

Telefon söhbəti zamanı Azərbaycan, Rusiya və Ermənistan liderlərinin Soçi görüşü və imzalanmış birgə bəyanat müzakirə olunub.

Prezident İlham Əliyev Türkiyənin mobillik sahəsində xidmət göstərən qlobal texnologiya markası ”Togg”un kütləvi istehsala başlanılması münasibətilə təbriklərini çatdırıb və bunu Türkiyə sənayesinin yeni uğuru kimi dəyərləndirib.

Telefon söhbəti zamanı Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin müxtəlif aspektləri ilə bağlı fikir mübadiləsi aparılıb.

**Məsələni ”Şərq”ə dəyərləndirən siyasi şərhçi Əziz Əlibəyli bildirib ki, Qarabağ münaqişəsinin həllindən sonra yaranan reallıq, birbaşa Türkiyənin milli maraqlarına uyğundur:** ”Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin bağlanması, bizim qədər Türkiyə üçün də böyük əhəmiyyət daşıyır. Burada həm Azərbaycanın milli təhlükəsizliyinin təmin olunması məsələsində, həm də bölgədə nəqliyyat xətlərinin açılması məsələsində Türkiyə birbaşa maraqlıdır. Ən azından ona görə ki, hazırda dünya Avrasiyaya doğru yönəlir. Bu mənada Çindən Londona gedən yola inteqrasiya etmək vacibdir. Ukrayna-Rusiya müharibəsindən sonra ənənəvi yolların sıradan çıxmasını müşahidə etdik. Ona görə də Zəngəzur dəhlizi get-gedə aktuallıq kəsb edir. Bunun reallaşması isə həm Türkiyəyə, həm də Azərbaycana inanılmaz fürsətlər yaradır.

Təbii ki, burada Ermənistan da fürsətlərdən yararlana bilər. Lakin militarist mövqeyi və işğalçı yanaşması regiondakı inteqrasiya proseslərində iştirakına imkan vermir. Bu mənada Soçi görüşündən sonra Ərdoğanın İlham Əliyevlə əlaqə saxlayaraq ümumi gedişata dair məsələlərlə maraqlanması çox vacibdir.

Digər tərəfdən Ermənistanla Azərbaycan arasındakı sülhün reallaşmasına ən böyük töhfə verən ölkələrdən biri də Türkiyədir. Hətta bir neçə gün öncə Ermənistanın baş nazirinin açıqlaması oldu ki, ”Biz Türkiyə ilə prinsipial razılıq əldə etmişik, aramızda sərhədlərin açılmağı ilə bağlı heç bir problem qalmayıb”. Artıq Türkiyə-Ermənistan Komissiyasının əldə etdiyi uğurlar imkan verir ki, bu praktikanı Azərbaycanla Ermənistan arasındakı münasibətlərin tənzimlənməsinə də tətbiq edək”.

Bu mənada birincisi, Ərdoğanla Əliyev arasındakı təcrübələrin bölüşülməsi önəmlidir. İkincisi, Türkiyə güclüdür və həlledici rolu da çox böyükdür. Üçüncü isə Türkiyə Qafqazda vacib oyunçulardan biridir və onun mövqeyi nəzərə alınmalıdır”.

**Nihat Müzəffər**



## Rusiyada hərbi xidmət müddətinin 2 ilə qədər uzadılması təklif olunur

**Rusiya Silahlı Qüvvələrində hərbi xidmət müddətinin 2 ilə qədər uzadılması təşəbbüsü ilə əlaqədar olaraq məsləhətləşmələr planlaşdırılıb və çox güman ki, bu təklif dəstəklənəcək.**

APA RİA Novosti-yə istinadən xəbər verir ki, bu barədə Rusiya Federasiya Şurasının müdafiə və təhlükəsizlik komitəsinin sədri Viktor Bondaryov bildirib.

Xatırladaq ki, buna bənzər təşəbbüslə bu ilin oktyabr ayının ortasında senator Vladimir Cabarov çıxış edib. Onun fikrincə, bu yanaşma daha da çox effektli olacaq. Belə ki, çağırışçıya (hərbi xidmətə çağırılan şəxsə) 1 il ərzində hər şeyi öyrətmək çətin olacaq.

Rusiya Dövlət Dumasının deputatı Mixail Şeremet də noyabrın əvvəlində analoji fikir irəli sürüb və deyib: ”Hazırkı format əsgərin keyfiyyətli hazırlığını dəstəkləmir”. Deputat həmçinin əlavə edib ki, hərbi xidmət müddətinin uzadılması ordunun döyüş hazırlığı səviyyəsini tez bir zamanda yüksəltməyə şərait yaradacaq.

Kremlin oktyabrın 21-i verdiyi bəyanata əsasən, bu təşəbbüs hələ müzakirə olunmayıb və mövzu ilə bağlı mövqe yoxdur. Kremlin mətbuat katibi Dmitri Peskov vurğulayıb ki, bu məsələdə Müdafiə Nazirliyinin mövqeyi əsasdır.

# “Təhlükəsizlik orqanlarının fəaliyyətini təqdir edirik”

## Əlisahib Hüseynov: ”İranın məsuliyyətsiz, destruktiv davranışlarına son verməyin vaxtı artıq gəlib çatıb”



**”İran səfirliyi doğrudan da təxribatla məşğuldur. Əvvəllər özünü bizə formal da olsa ”dost” kimi göstərən İran İslam Respublikası hazırda üzdən ”dost” kimi davranmağa da ehtiyac duymur”. Bu barədə Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov deyib. Partiya rəhbəri bildirib ki, bu ölkə Azərbaycana qarşı açıq-aşkar düşmənçilik siyasəti yürüdür:**

”Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) əməliyyat keçirərək İran xüsusi xidmət orqanının nəzarəti altında yaradılmış qanunsuz silahlı birləşməni ifşa etməsi də İranın bizə qarşı düşmənçiliyinin miqyasını göstərir. Rəsmi məlumatda İranın Azərbaycandakı səfirliyinin adının keçməsi Tehranın iç üzünü açıb ortaya qoyur. Səfirlik hara, təxribatla məşğul olmaq hara? Səfirlik maşını nə vaxtdan iki ölkənin sərhədindən qanunsuz yüklərin daşınması üçün vasitə olub? İran səfirliyinə məxsus avtomaşınla bizim ölkəmizə bizim milli maraqlarımıza zidd olan təbliğat-təşviqat vasitələrinin daşınması farsmolla rejiminin xalqımıza qarşı, ölkəmizə qarşı necə dərin nifrət bəsləməsinin göstəricisidir. Bu rejim artıq hətta diplomatik qalmaqal yaşanacağından da çəkinmir”.

**Ə.Hüseynov vurğulayıb ki, İranın hakim rejimi Ermənistanı himayə etmək və Azərbaycanın mövqelərinin zəiflədilməsi üçün hər cür məkrli vasitələrə əl atır:** ”DTX-nin son əməliyyatı İranın istər dini-mənəvi sahədə, istərsə də digər istiqamətlər üzrə həmişə ölkəmizə qarşı təxribat işləri apardığını bir daha təsdiqləyir. Lakin İranın bu cür məsuliyyətsiz, destruktiv davranışlarına son verməyin vaxtı artıq gəlib çatıb. Biz təhlükəsizlik orqanlarımızın bu istiqamətdə fəaliyyətlərini təqdir edirik. İranın ölkəmizdə pozuculuq-təxribat işləri ilə məşğul olan ələtlərına qarşı mübarizə bundan sonra daha da genişlənəcək. Azərbaycan İran üçün Suriya, İraq və ya Livan deyil. Cənub qonşumuzun Azərbaycana qarşı təxribatçı siyasəti sonda bumeranq kimi İranın özünə qarşı qayıda bilər. İşğalçı Ermənistanın baş naziri ni ”bismillah”la qarşılayan mollalar yaxşı olar ki, odla oynamasınlar”.

**İsmayıl Qocayev**

**Azərbaycan və Ermənistan arasında noyabrın sonuna və ya dekabrın əvvəlinə kimi sülh müqaviləsi imzalana bilər. Müqavilənin Tbilisidə imzalanması planlaşdırılır. Bu barədə Ermənistanın ”Hraparak” qəzeti məlumat yayıb. Nəşr qeyd edib ki, Gürcüstan ümumqafqaz sülhünün vasitəçisi və simvolu ola bilər.**

Qəzetin iddiasına görə, hazırda Gürcüstanda dövlət can istənilən növ muxtariyyətin əleyhinədir”.

”Hraparak” yazıb ki, müqavilə imzalanandan bir neçə saat sonra bəzi yaşayış məntəqələri boşalacaq: ”Azərbaycan tələb edir ki, 1991-92-ci ilə qədər azərbaycanlıların yaşadı-



# Hər şey Rusiya-Ukrayna savaşından asılı olacaq

## Azər Rəşidoğlu: ”Savaş bitənə qədər Qarabağla bağlı önəmli sənədin imzalana biləcəyinə inanmıram”

başçısı İlham Əliyevlə Baş nazir Nikol Paşinyanın görüşünə və sülh dövrünün başlanğıcını göstərən sənədin imzalanmasına fəal hazırlıq gedir: ”Bu sənədin imzalanması Ermənistanın Qarabağdan rəsmi və qəti şəkildə imtinası olacaq. Ermənistan heç bir şəkildə Qarabağın işlərinə qarışmamağı öhdəsinə götürür. Qarabağ sakinlərinin Ermənistan vətəndaşlığından məhrum edilməsi və maliyyələşdirilməsi kəsiləcək. Qarabağın erməni sakinləri ya Azərbaycan vətəndaşlığını qəbul edəcək, ya da Ermənistana köçəcəklər. Azərbaycanlıların yaşadığı, lakin hazırda Ermənistanın nəzarətində olan ərazilər dərhal ermənilər tərəfindən azad edilməlidir”.

**Politoloq Azər Rəşidoğlu ”Şərq”ə bildirib ki, Tbilisidə belə tezliklə sülh müqaviləsi istiqamətində sənədin imzalanacağı o qədər də inandırıcı deyil. Siyasi şərhçinin fikrincə, daha yaxşı olardı ki, Gürcüstan, Azərbaycan və Ermənistan arasında XİN rəhbərləri və yaxud prezidentlər ranqında görüş keçirilsin:** ”Cənubi Qafqazda sabitlik mövzusunda belə görüşlər təşkil edilər bilər. Lakin Rusiya buna imkan verməyəcək. Kreml ”Qafqaz Evi”nə qarşıdır və bunu açıq bəyan edir. Sülh müqaviləsinin belə tezliklə Tbilisinin moderatorluğu ilə imzalanacağı ehtimalı isə inandırıcı deyil. Bölgədə maraqları olan Qərb və Rusiya imkan verməzlər ki, Tbilisidə belə bir saziş imzalansın. Düşünürəm ki, tərəflər Brüssel və Moskvada çoxsaylı görüşlər keçirəcəklər. Lakin sülh sazişinin imzalanması yubanacaq. Hər şey Rusiya-Ukrayna savaşından asılı olacaq. Bu savaş bitənə qədər Qarabağla bağlı önəmli sənədin imzalana biləcəyinə inanmıram”.

**İsmayıl Qocayev**

# Şanlı və qürur tariximiz

## Biz indi dünyada qalib xalq kimi tanınırıq



Türkan Hüseynova,
Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində ADPK-nin pedaqogika-psixologiya kafedrasının müəllimi

**Bu gün hər birimiz Azərbaycan tarixinin ən qürurlu günlərini yaşayırıq. Düşmən tapdağında olan torpaqlarımız cəmi 44 günə azad edildi, 30 illik işğala son qoyuldu. Bu şanlı qələbə Müzəffər Ali Baş Komandan İlham Əliyevin həm siyasi arenada, həm də döyüş meydanında qətiyyəti, Ordumuzun gücü və qəhrəman əsgər zabitlərimizin qanı, misilsiz şücaətləri nəticəsində əldə olundu. Ermənistan üzərində əldə etdiyimiz bu Zəfərlə bütün dünyada qalib dövlət, qalib xalq kimi tanındıq. Bu gün xalqımız 8 noyabrı Zəfər günü kimi təntənə ilə qeyd edir.**

Ali Baş Komandan İlham Əliyevin "Qarabağ Azərbaycandır və nida işarəsi" söylədiyi ifadəsi həyatda öz təsdiqini tapdı. "Dəmir yumruq" kimi birləşən xalq-iqtidar birliyi mümkünsüzü mümkün etdi. Ölkə başçısı bu barədə deyib. "Əgər bu birlik olmasaydı, milli həmrəylik olmasaydı, biz heç vaxt torpağımızı işğalçılardan azad edə bilməzdik. Bu illər ərzində bizə qarşı aparılan qara piar kampaniyası, qarayaxma, şər-böhtan kampaniyasının da əsas məqsədi o idi ki, bizi əsas vəzifəmizdən uzaqlaşdırsınlar, biz uzaqlaşsaq, daxili problemlər içində boğulaq və işğal edilmiş torpaqlar işğalçıların əlində əbədi qalsın. Güclü siyasi iradə, xalq-iqtidar birliyi bu planları da alt-üst etdi". Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu 28 ilin hər gününün qisasını aldı. 44 gün davam edən Vətən müharibəsində döyüş meydanında igid, qəhrəman Azərbaycan əsgərlərinin qazandığı Zəfər diplomatiya meydanında da uğurlara çevrildi və sonda danışıqların şərtlərini Azərbaycan tərəfi diktə etdi. Çoxlu sayda dünyanın ən nüfuzlu televiziya kanallarına və informasiya agentliklərinə müsahibəsində Azərbaycana qarşı irəli sürülən bütün yalanları, yalan informasiyaları ifşa etdi. Məşhur xarici jurnalistlərin suallarını tutarlı tarixi faktlarla cavablandıraraq bütün dünyaya subut etdi ki, Qarabağ Azərbaycandır. 44 günlük hərbi döyüşlər nəticəsində 300-ə yaxın yaşayış məntəqəsi, o cümlədən Füzuli şəhəri, Cəbrayıl şəhəri, Zəngilan, Qubadlı şəhərləri, Hadrud qəsəbəsi, Suqovuşan və digər ərazilərimiz döyüş meydanında azad edildi. Noyabrın 8-də cənab prezidentimiz, Ali Baş Komandan İlham Əliyev Şuşanın azad edilməsi müjdəsini də xalqımıza verdi. Bundan sonra Azərbaycan-Rusiya-Ermənistan rəhbərlərinin imzaladıqları üçtərəfli bəyanatla Dağlıq Qarabağ münaqişəsinə son qoyuldu. Əldə olunmuş razılaşmaya əsasən, 1 dekabr 2020-ci il tarixinədək Ağdam, Kəlbəcər və Laçın rayonları Azərbaycana qaytarıldı, xalqımızın 30 illik torpaq həsrətinə son qoyuldu. Bununla da Azərbaycan münaqişənin hərbi yolla həlli yoxdur deyən dünyanın bir sıra ermənipərəst dövlətlərinə sübut etdi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabaq münaqişəsinin hərb və diplomatiya yolu ilə həlli mümkündür. İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu Qələbə tarixdə əbədi qalacaq. Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan bayrağını işğaldan azad olunmuş torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarından keçmiş əsgər və zabitlərimizə, bütün şəhid və qazilərimizə dərin ehtiram əlaməti olaraq Prezident İlham Əliyev 27 sentyabr - Vətən müharibəsinin başladığı günün anım günü kimi qeyd olunması ilə bağlı 2020-ci il 2 dekabr tarixində sərəncam imzaladı.



Bu addım şəhidlərin ruhuna ehtiramın göstəricisidir. Torpaq, Vətən uğrunda canların fəda etmiş qəhrəman oğullarımızın adları Azərbaycan tarixinə qızıl hərflərlə həkk oldu. Nə qədər müstəqil Azərbaycan var, onların əziz xatirələri daim qəlblərdə yaşayacaq, dərin hörmət, məhəbbət hissi ilə xatırlanacaq.

# İnsan alverinin qurbanları...

## Bəlanın qarşısını almaq üçün öncə təhsildən başlamaq lazımdır

**Hər bir cəmiyyətdə şəxsiyyətin səviyyəsi onun vətəndaş mövqeyi, siyasi və sosial düşüncəsi ilə bilavasitə əlaqədardır. Bu mənada təhsilsiz insanların maarifləndirilməsinə çox böyük ehtiyac var. Deməli olar ki, savadsızlıq cəmiyyətin sosial bəlasıdır. İnsan alveri də böyük sosial problem hesab edilir.**

Dünya dövlətləri ilə yanaşı, Azərbaycan Respublikası da insan alverinə qarşı mübarizədə son dərəcə fəal iştirak etməkdədir.

Alverçilər insanlara ev qulluqçusu, süpürgəçi, dayə, yaşlı adamlara qulluq edən şəxs, kənd təsərrüfatı işçisi, rəqqas, striptizçi, model, artist, ofisiant adı ilə işə qəbul olunacaqlarını vəd edərək onları qurbana çevirirlər. Bu prosesə cəlb edilənlərə yüksək əmək haqqı olan iş təklif olunur, onlara firavan həyat vəd edilir. Sahibkar cəlbedilləni inandırır ki, iş onun xoşuna gəlməsə istədiyi vaxt iş yerini tərk edə bilər. Prosesə cəlbedilənin əvəzinə cəlbedən iş müqaviləsi bağlayır, təyyarəyə bilet alır, viza və s. məsələləri həll edir. Tora düşənlər xaricə gediş, yaşayış yeri, geyim, digər "xidmətlərə" görə borclu olurlar. Borcu ödəmək üçün, ilk növbədə, qurban ona vəd edilən işin məbləğindən xeyli aşağı olan başqa bir işlə məşğul olmağa məcbur edilir və bəzən onların əməkhaqqı da kəsilir.

İnsan alverçiləri insanların məlumatsızlığında mövcud olan "boşluq"lardan asanlıqla istifadə edirlər. Çox tez-tez belə hallara



rast gəlinir ki, cavan oğlan bir qızla tanış olur, onu bara, kafeyə dəvət edir, ona kiçik hədiyyələr alır, bir müddətdən sonra ona xarici ölkədə yaxşı əməkhaqqı olan iş təklif edir. Cəlbedilən bu təklifə şübhə ilə yanaşır, ancaq məhəbbətini itirmək qorxusu ona rədd cavabı verməyə imkan vermir. Bu işdə saxta nikah bağlamaq, qurbanlara xarici vətəndaşlarla tanışlığa da imkan yaradılır.

İnsanlar qrup halında, ya da fərdi şəkildə cəlb edilirlər. Bu proses bəzən rəqs qrupu, ya da turist qrupu kimi təşkil olunur.

Ötən 2020-2021-ci illərdə insan alveri cinayətlərinin qurbanına çevrilən 95-nəfərin 94-ü qadın, 1 nəfəri kişi olub və əmək bazarında istismara cəlb edilib. 95 nəfərin 87-si orta təhsilli, 5-i natamam orta təhsilli olub, 3 nəfərin isə heç biri təhsili olmayıb. Buradan aydın olur ki, qurbanların böyük əksəriyyətini orta təhsilli insanlar təşkil edir. Bütün bunlara baxmayaraq, Azərbaycan dövləti öz vətəndaşlarına sahib çıxır və insan alverinin qurbanı olan şəxslərə birdəfəlik müavinət verilir, onlara psixoloji yardım göstərilir. Azərbaycan Respublikası Prezidentinin 28 iyun 2005-ci il tarixli 958 nömrəli fərmanı ilə təsdiq olunmuş "İnsan alverinə qarşı mübarizə haqqında" qanununa əsasən, təhsil müəssisələrinin tədris planında insan alverinin profilaktikasına və qarşısının alınmasına yönəldilmiş kurslar təşkil edilməli, təhsil müəssisələri, uşaq evləri, internat məktəbləri və yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntusunun profilaktikasını həyata keçirən digər orqan və müəssisələrdə xüsusi proqramlar hazırlanaraq həyata keçirilməlidir. İnsan alverinin tədrisi zorakılıq və xüsusi ilə cinsi zorakılıq məsələləri ilə bağlı olduğu üçün insanların fikri müxtəlif ola bilər. Lakin yuxarıda qeyd edilənləri nəzərə almaqla deyə bilərik ki, insan alverindən əldə edilən gəlir ildə 32 milyard dollardan çoxdur. Dünyada silah alveri və narkotikadan sonra məhz insan alveri ən gəlirli sahələrdən hesab olunur. Azərbaycan Respublikası tərəfindən 2000-ci il dekabrın 12-də imzalanan və 2003-cü il mayın 13-də Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilən BMT-nin "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiyasının və onu tamamlayan "İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında" Protokolun, habelə 2002-ci il sentyabrın 20-də qəbul edilən "İnsan alverinin qarşısının alınması və ona qarşı mübarizə haqqında" Brüssel Bəyannaməsinin müddəalarını nəzərə alaraq Azərbaycan Respublikası Prezidentinin 6 may 2004-cü il tarixli 208 nömrəli Sərəncamı ilə 2004-2008-ci illər, Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 fevral tarixli 133 nömrəli Sərəncamı ilə 2009-2013-cü illər, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 24 iyul tarixli 667 nömrəli Sərəncamı ilə 2014-2018-ci illər, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 iyul tarixli 2173 nömrəli Sərəncamı ilə 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı qəbul edilib. 2015-ci ildə BMT Baş Assambleyasının 70-ci sessiyasında yaxın illərdə qlobal miqyasda yoxsulluğun aradan qaldırılması, sülhün və bərabərliyin bərqərar olması və gələcəkdə ətraf mühitin qorunmasına dair səyləri birləşdirmək məqsədilə qəbul olunmuş "2030 - Davamlı İnkişaf Gündəmi"ndə 17 davamlı inkişaf məqsədləri sırasına insan alverinə qarşı mübarizə üzrə vahid elementləri birləşdirən üç məqsəd daxil edilib.

Hər il on minlərlə insan istismara məruz qalır və bu, artan templə davam edir. Baxmayaraq ki, davamlı inkişaf məqsədlərini qəbul edərək, qlobal cəmiyyət 2025-ci ilədək uşaq əməyinə, 2030-cu ilədək məcburi əməyə və insan alverinə son qoymağı öhdəsinə götürüb.

Beynəlxalq Əmək Təşkilatının (BƏT) son hesablamalarına görə, qlobal tədarük zəncirləri daxil olmaqla 25 milyon böyük və uşaq məcburi əməyə, 152 milyon uşaq isə uşaq əməyinə cəlb edilir.

Bu gün Azərbaycan Respublikasında bu problemin qarşısının alınması üçün mühüm qanunlar qəbul edilməklə dövlətimiz və dövlətçiliyimiz möhkəmlənməkdə davam edir. Hər birimiz vətəndaş olaraq öhdəmizə düşən vəzifələri vicdanla yerinə yetirməyə borcluyuq. Gəlin, insan alverinə birlikdə yox deyək.

**Fazilə Hüseynli,**
**ADPU-nun Fəlsəfə və sosial elmlər kafedrasının baş müəllimi**

# Maarifləndirmə, təbliğat işi zəifdir

## Bəzi ali təhsil müəssisələrində tələbə krediti üçün müraciət edənlərə süni əngəllər yaradırlar



**Tələbə kreditinin verilməsi üçün növbəti il dövlət büdcəsindən 8 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur. Bu barədə Azərbaycan Respublikasının 2023-cü ilin dövlət və icmal büdcələri üzrə layihədə qeyd edilib. Sənəddə qeyd edilir ki, 2021-ci və 2022-ci illərdə ayrılmış vəsaitləri də nəzərə aldıqda, ümumilikdə Təhsil Tələbə Kredit Fondunun resurs zərfi 110 milyon manat təşkil edəcək.**

Təhsil eksperti Elçin Əfəndinin "Şərq"ə açıqlamasına görə, Azərbaycanın ali məktəblərində təhsil alan tələbələrinin təhsil haqqı ilə bağlı problemləri bir qayda olaraq hər növbəti tədris ili başlayan ərəfədə yenidən aktuallaşır: "Maddi çətinlik ucbatından təhsil ala bilməyən tələbələrin təhsildən imtina etməsi halları ilə demək olar, hər il qarşılaşırıq. Hazırda ölkənin ali təhsil müəssisələrində təhsil alan tələbələrin 70 faizi öz vəsaiti hesabına, yəni ödənişli əsaslarla, 30 faizi isə dövlət büdcəsi vəsaiti hesabına təhsil alır. Yalnız dövlət ali məktəblərinin ödənişli ixtisaslarına qəbul olunan bəzi kateqoriyalı tələbələr təhsil haqqından azaddırlar. Bu tələbələrin də təhsil haqları dövlət tərəfindən ödənilir.

146 min 370 nəfərdən çox tələbə ödənişli əsaslarla təhsil alır. Onların 100 mindən çoxu bakalavr, 12 mini magistratura, 36 min tələbə isə sub bakalavr pilləsində təhsil alır. Bu tələbələrin də 20 mini əhalinin müəyyən həssas təbəqəsinə aid olduğu üçün təhsil haqları dövlət hesabına ödənir. 126 min 500 tələbə isə təhsil haqqı ödəyir. Bunların arasında maddi durumu çox aşağı olan və təhsil haqqını ödəmək iqtidarında olmayan ailələrdən gələn tələbələr var. Dövlət bunu nəzərə alaraq tələbə təhsil krediti yaratdı. Bu kreditlər isə sosial və standart kreditlər olmaqla iki kateqoriyadan ibarətdir. Sosial kreditlərdən adətən əhalinin sosial həssas qrupuna daxil olan tələbələr yararlanır. Standart kreditlərdən isə akademik göstəriciləri yüksək olan tələbələr istifadə edirlər".

**E.Əfəndi hesab edir ki, büdcədən 8 milyon əlavə vəsaitin ayrılması Fondun fəaliyyətinin daha da genişlənməsinə və daha çox tələbənin təhsil kreditindən faydalanaraq ali təhsilini davam etdirməsinə şərait yaradacaq.**

Hazırkı mərhələfə Fondun fəaliyyətinin qənaətbəxş olduğunu vurğulayan ekspertə görə, Fondun təbliğatı ilə bağlı maarifləndirmə işində çatışmazlıq var: "Cəmiyyətdə, xüsusən də regionlarda yaşayan insanlar arasında kreditlərin hansı əsaslarla verilməsi, kimlərə şamil olunmasına dair məlumatsızlıq var. Regional təhsil dairələri bu istiqamətdə maarifləndirici addımlar atmalıdır. Onu da deyim ki, bəzi ali təhsil müəssisələri tələbə krediti üçün müraciət edən tələbələrə süni əngəllər yaradırlar. Bu faktor aradan qaldırılmalıdır. Şərtlərlə bağlı bir qədər təkmilləşdirmə aparılmalı və birinci kurs tələbələrinin də Fonddan kredit götürüb təhsil haqqını ödəməsinə şərait yaradılmalıdır. Bununla bağlı da əsasnamədə konkret meyarlar tətbiq edilməlidir".

**Şəymən**

# Azərbaycanlı gənclər ABŞ-da böyük qələbə qazanıb



**Dünyanın 34 ölkəsini təmsil edən 100 mindən çox tələbəni bir araya gətirən və dünya gənclərinin sosial sahibkarlıq bacarıqlarının inkişaf etdirilməsi istiqamətində aparıcı təşkilat sayılan "Enactus" platformasının növbəti Dünya Kuboku Puerto-Rikonun San Xuan şəhərində keçirilməkdədir.**

Oktyabrın 30-da başlayan Dünya Kubokunda müxtəlif ölkələri təmsil edən gənclərin sosial sahibkarlıq üzrə biznes layihələri birincilik uğrunda mübarizə aparır.

Ölkəmizi təmsil edən Azərbaycan Dövlət İqtisad Universitetinin "Enactus" komandasının təqdim etdiyi layihələr 34 ölkənin komandası arasında ən uğurlu layihələrdən biri kimi seçilərək yarımfinal mərhələsinə yüksəlib. Oktyabrın 31-də Azərbaycanın "Enactus" komandası Kanada, Keniya və Qvatemala komandaları ilə mübarizə aparıb. Açıqlanan nəticəyə əsasən Azərbaycan və Kanada komandaları növbəti mərhələyə vəsiqə qazana bilib. Yarımfinal mərhələsində komandamız "Kekamaps" və "Limitless" layihələri ilə Almaniya, Kanada və İrlandiya komandaları ilə final mərhələsi uğrunda mübarizə aparacaqdır. Adıçəkilən layihələr cəmiyyətdə inklüzivlik əmsalının artırılması, eləcə də sağlamlıq məhdudiyyətləri olan şəxslərin ictimai yerlərdə hərəkəti üçün əlverişli şəraitin yaradılmasına dəstəyin göstərilməsinə yönəlib. 2005-ci ildən etibarən Azərbaycanın da qoşulduğu "Enactus" proqramında bu, ölkəmizi təmsil edən komanda üçün ən uğurlu nəticələrdəndir. Əvvəlki müddətdə Azərbaycan yalnız bir dəfə, 2019-cu ildə "Enactus" Dünya Kubokunun yarımfinal mərhələsinə qədər yüksələ bilib.

*Qeyd edək ki, Azərbaycan Respublikası Gənclər Fondunun dəstəyi ilə ölkəmizdə fəaliyyət göstərən "Enactus" proqramı dövlət gənclər siyasəti çərçivəsində gənclər arasında sosial əsaslı sahibkarlıq fəaliyyətinin təşviqində mühüm rol oynayır. Azərbaycan "Enactus" proqamına üzv olan yeganə Cənubi Qafqaz ölkəsidir.*

# Panik atak xəstələrinin sayı durmadan artır



**"Pandemiya dövründə və sonra panik atak ilə müraciət edənlərin sayı fantastik surətdə artıb".**

Bunu psixoloq Elmir Əkbər AzTV-nin "Çıxışa doğru" proqramında deyib.

"Panik atak zamanı stres zənciri işə düşür, adrenalinin təsirindən təngnəfəslik yaranır. Oksigen səviyyəsi düşür. Bir tərəfdən də koronavirusdan irəli gələn tənəffüs problemi də insanları ölümə aparırdı. İnsanlar panik atakı, həyəcanı idarə edə bilsələr, ölüm halları azalacaq. Artıq insan virusun üçüncü dalğasından sonra vəziyyətə rasional yanaşır. Gigiyenik normalar o qədər faydalıdır ki, virus oldu-olmadı bu qaydalara ciddi riayət edilməlidir".

# Azərbaycanda elektromobil idxalı 4,5 dəfə artıb



**Ölkəyə hibrid və elektromobillərin idxalında artım var.**

APA xəbər verir ki, bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ekoloji siyasət şöbəsinin müdiri Faiq Mütəllimov "Ekspert saatı"nda deyib.

O bildirib ki, bu ilin 8 ayında ötən ilin müvafiq dövrü ilə müqayisədə 13 faiz daha çox hibrid avtomobil idxal olunub:

"Həmçinin elektromobil idxalı isə 4,5 dəfə artıb. Rəqəm elə də böyük deyil. Cəmi 200-dən bir qədər çox avtomobil idxal edilib".

# Düşmənin canına qorxu salındığı gün

## Şəhidlərin cənnət qoxan qanıyla yazıldı "Zəfər dastanı"mız



**İlahə Allahverdiyeva, Naxçıvan Dövlət Universitetinin "Jurnalistika" fakültəsinin IV kurs tələbəsi**

**İl 2020, təqvim 8 noyabrı göstərir. Bu tarix bütün gəlib keçmiş zamanların ən gözəli, ən füsünkarıdır.... Birliyin, bilgəliyin, qürurun, mərdliyin, mübarizliyin, azadlığın və 30 illik həsrətin sonunda vüsala qovuşmağın günüdür bu tarix. Fəsillərdən payız olsa da nə ağacların, nə otların, nə də ki çiçəklərin rəngi solmayıb. Çünki ümidin, arzuların baharı başlayıb Azərbaycanda, mövsüm aydınlığın mövsümüdür. İllərdir qəlbimizdə daşıdığımız bütün ağrıları və dərdləri ümidsizliyin sonsuz qışına dəfn etdik bu tarixdə. Artıq hər saniyə ciyərlərimizə dolu-dolu aldığımız havadan azadlığın əvəzsiz qoxusu duyulur.**

İl 2020, təqvim 8 noyabrı göstərir. Bu tarixdə xalqımın qəhrəmanlığının, şücaətinin, fədakarlığının milli və mənəvi dəyərləri ilə bütünləşdiyi bir dastan yazıldı, adı "Zəfər dastanı" olan. Bu dastan millətimin şəxsiyyət və iradəsinin dərin izlərini sonsuzluğa daşıyan qəhrəmanlıqlarla doludur. Gələcək nəsillərə millət olmaq və öz müqəddəratına sahib çıxmaq şüurunu qazandıran "Zəfər dastanı"mız qürurlu bir xalqın kimliyini, qüdrətini və yenilməzliyini də dünyaya göstərdi. Bu dastanın əsas qəhrəmanları bütün arzularını, duyğularını və həyatlarını Vətən-Millət-Bayraq kimi uca qayələr ətrafında heç bir qarşılıq gözləmədən qurban verən igidlərdir. Onların cənnət qoxan qanlarıyla yazıldı "Zəfər dastanı"mız.

İl 2020, təqvim 8 noyabrı göstərir. Bu tarix haqqın batilə, birliyin ayrılığa, mərdin namərdə, xeyirin şərə qalib gəldiyi gündür. Bu tarixdə Şuşamızın azadlığı ilə zəfərimiz taclandı, xalqımız yeni bir diriliş ruhuyla dimdik ayağa qalxdı. Dövlət-Ordu-Xalq birliyinin yaratdığı dəmir yumruğun gücündən doğan qələbənin sevinciylə qanadlandı.

İl 2020, təqvim 8 noyabrı göstərir. Üç minə yaxın vətən sevdalısının cənnət qoxan ruhuyla Kabəyə salam verdiyi gündür bu gün. Övladını itirən anaların, ataların alınan qisasın təsəllisiylə rahatlıq tapdığı gündür. Qanıyla torpağa can qatan, ölümü belə öldürərək ölümsüzlük qazanan igidlərin tarixə yazdığı azadlıq nəğməsinin bəstələndiyi gündür. Bu nəğmə bəstələnərkən şəhadətə qucaq açan minlərlə oğullarımız bizlərə tarixi torpaqlarımızın azadlığını miras qoydular. Bu tarix əzmimizin düşmən canına qorxu saldığı gündür. Elə bir gündür ki, yenilməzliyimizin qarşısında butun dunya heyran qaldı.

# "Təmirsiz mənzillərin qiymətində dəyişiklik gözlənilmir

## Ancaq təmirli mənzillərdə az da olsa ucuzlaşma ola bilər



**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. İclasda Maliyyə naziri Samir Şərifov deyib ki, 2023-cü ildən xammal və materialların idxalının ƏDV-dən azad edilməsi nəzərdə tutulur.**

O bildirib ki, 2023-cü ildə əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması gələn ilin prioritetlərindəndir.

Qeyd edək ki, 2023-cü ilin dövlət büdcə layihəsinə əsasən, gələn il dövlət büdcəsinin gəlirləri 30,7 milyard manat proqnozlaşdırılır. Bu da ölkə tarixinin ən yüksək göstəricisi olmaqla, 2022-ci illə müqayisədə 5,2 faiz, 2021-ci illə müqayisədə isə 16,4 faiz çoxdur.

Dövlət büdcəsinin xərcləri 33,3 milyard manat proqnozlaşdırılır ki, bu da 2022-ci illə müqayisədə 1 milyard manat, 2021-ci illə müqayisədə isə 5,9 milyard manat çoxdur.

Bununla yerli istehsal olunan məhsullara daha çox fokuslana biləcəyimizi deyən iqtisadçı-ekspert Rəşad Həsənov "Şərq"ə vurğulayıb ki, yəqin, Nazirlər Kabinetinə siyahının hazırlanmasına dair əlavə tapşırıq veriləcək: "Çünki bu, bütün məhsullara şamil edilməyəcək. Amma tətbiq edildiyi halda da yerli istehsal məhsullarının maya dəyərinin ucuzlaşmağına gətirib çıxaracaq. Ona görə ki, hökumət 2022-ci ilin fevral ayında antiinflyasiya tədbirlər planının hazırlanması ilə bağlı məsələni qarşısına qoyub.

Bu günə qədər bu istiqamətdə ciddi addımlar atılmasa da, 2023-cü ildən vergidən azadetmə və rüsumlardan azadedilmə ilə bağlı müəyyən güzəştlərin verilməsi gözlənilir.

Burada əsas məqsəd istehlak səbətinə daxil olan məhsulların maya dəyərinin aşağı salınması yolu ilə, bazarda onların istehlak qiymətlərinin optimallaşdırılması və prioritet istiqamətində yaranmış təzyiqlərin qismən də olsa neytrallaşdırılmasıdır".

**Ekspert qeyd edib ki, bunun indiki şərtlərdə mənzillərin qiymətinə təsir göstərəcəyini düşünmürəm:** "Əslində burada mənzilləri də kateqoriyalaşdırmaq lazımdır. Yeni təmirsiz mənzillərdə istifadə olunan materialların əksəriyyəti yerli məhsuldur. Buna görə də təmirsiz mənzillərin qiymətində dəyişiklik gözlənilmir. Lakin təmirli mənzillərdə Nazirlər Kabinetinin verəcəyi qərardan asılı olaraq, az da olsa ucuzlaşma ola bilər. Çünki təmirdə istifadə olunan məhsullar xaricdən idxal olunur".

**Nihat Müzəffər**



### "Nar" SABAH Bilik yarışmasının keçirilməsinə dəstək oldu

**"Nar" SABAH qrupları layihəsi çərçivəsində1000-ə yaxın komandanın iştirak etdiyi SABAH Bilik yarışmasının təşkilinə dəstək olub. Layihənin əsas məqsədi istedadlı tələbələrin daha da stimullaşdırılması və elmi-yaradıcı təşəbbüslərinin artırılmasına töhfə verməkdir.**

Qeyd edək ki, SABAH Bilik yarışmasında 200 komanda məhz "Nar"ın dəstəyi ilə keçirilmiş mühəndislik üzrə Bilik Yarışmasının iştirakçısı olub. Yarışmanın final mərhələsində iştirak edən "Nar"ın İctimaiyyətlə əlaqələr departamentinin rəhbəri Əziz Axundov elm və təhsilin təşviqinə yönəlmiş layihələrin vacibliyini vurğulayıb: "Əminəm ki, intellektual yarışlar gənclərin gələcək inkişafında əvəzsiz rol oynayır. Məhz buna görə də, "Nar" bu cür intellektual yarışların keçirilməsinə hər zaman dəstək olur ".

Elm və təhsilə marağın artırılması istiqamətində davamlı təşəbbüslər edən "Nar"ın sosial layihələri ilə nar.az/projects səhifəsində tanış ola bilərsiniz.

### Elan

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) Təhlükəsizlik İdarəsinin əməkdaşı, mühafizəçi Yusufov Rauf Natiq oğluna məxsus 2010-cu ilin 27 mart tarixində verilmiş vəsiqə itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən Mehdiyev Emin Fazil oğlunun adına verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

# "Sadəliyi özümə dost seçmişəm"

## Alim Qasımov: "Nə qədər sadə təbəqədə yaşasam, o qədər mənə rahatlıq gəlir"



**Xalq artisti Alim Qasımov açıqlaması ilə diqqət çəkib.**

Sənətçi "Həmin Zaur" verilişinə qonaq olarkən aparıcı Zaur Kamalın "Nədənsə bizdə bir imkana görə, bir də bahalı maşına, görüntüyə görə qiymət verirlər" fikrinə belə cavab verib:

"Çünki belə vərdiş ediblər. Amma mən lap əvvəldən indiyə qədər bir dəfə də maşınımı yumamışam. Elə palçıqlı da sürmüşəm. Kimin yazığı gəlirsə götürür, yuyur. Mənim üçün fərqi yoxdur. İndi, ümumiyyətlə, fərqi yoxdur, mən nə geyinirəm, nə yeyirəm, nə sürürəm, harada otururam, nə edirəm...

Çünki o ritmdə özümü yaşada bilmirəm. Nə qədər sadə təbəqədə yaşasam, o qədər mənə rahatlıq gəlir. Çox bahalı yerdə sıxılıram, sadəliyi özümə dost seçmişəm. O məni yola verir, mən də onu".

# "Solğun çiçəklər"in qəhrəmanları 35 ildən sonra bir araya gəliblər



**"Solğun çiçəklər" teletamaşasının baş qəhrəmanları "Sara" və "Bəhram" obrazını canlandıran aktyorlar Əməkdar artist Mehriban Abdullayeva və Xalq artisti Nurəddin Mehdixanlı 35 ildən sonra bir araya gəliblər.**

Birlikdə olan şəkillərini Mehriban Abdullayeva feysbukda paylaşıb.

Aktrisa paylaşımına "Solğun çiçəklər" 35 ildən sonra: Sara və Bəhram" sözlərini yazıb.

*Qeyd edək ki, "Solğun çiçəklər" teletamaşası 1987-ci ildə işıq üzü görüb.*

# İnsanların nağdsız ödənişlərə marağı artacaq

## Bununla dövriyyə daha şəffaf olacaq, vergidən yayınma hallarının qarşısı alınacaq

**Azərbaycanda gələn ildən nağdsız əməliyyatların stimullaşdırılması məqsədilə nağdsız ödənilən ƏDV-nin 17,5 faizinin geri qaytarılması nəzərdə tutulur.**

Bu, Vergi Məcəlləsinə təklif edilən əlavə və dəyişikliklərdə öz əksini tapıb.

Dəyişikliyə əsasən, nağdsız əməliyyatlara görə ƏDV-nin geri ödənilən hissəsi 15 faizdən 17,5 faizə qaldırılır, nağd əməliyyatlara görə ƏDV-nin geri ödənilən hissəsi isə 10 faizdən 5 faizə endirilir.

**İqtisadçı-ekspert Eldəniz Əmirov "Şərq"ə açıqlamasında deyib ki, son illər ölkəmizdə həyata keçirilən ən uğurlu layihələrdən biri məhz "ƏDV geri al"dır:** "Yeni dövlət məhz bu vasitələrlə həmin sahələrdə də qeyri-qanuni ödənişlərin, vergidən yayınmaların qarşısının alınması iqtisadiyyatın ağardılması prosesində istehlakçıların iştirakını təmin etmək istəyir. Mövcud layihənin digər məqsədi həm də nağdsız ödənişlərin stimullaşdırılmasıdır. Bunun effektini müəyyən qədər görməyə başlamışıq.

Artıq vətəndaşlarımız alış-veriş zamanı ödədikləri vəsaitin vergi qeydiyyatına alınmasında maraqlı tərəf olaraq çıxış etməyə başladı və bu sahədə kifayət qədər müsbət irəliləyiş var. ƏDV ilə bağlı statistika bu sahədə praktiki olaraq uğurlar əldə edildiyini göstərir. Ödənişlərin leqallaşdırılması artdıqca alıcıların geri aldığı ƏDV-lərin sayı da artır. Təbii ki, burada yeni nəsil kassa aparatlarının sayının artırılması da böyük rol oynayır.



Hazırda ölkədə 740 mindən çox nəzarət olunan kassa aparatı var. Bu aparatların mövcudluğu da iqtisadiyyatın inkişafına ciddi töhfə verən addımlardan biridir. Yeni nəsil kassa aparatlarından istifadə edən satıcıların sayı da artmaqdadır. Yeni nəsil kassa aparatlarının dövriyyəyə girməsi ƏDV-nin geri alınması ilə bağlı proseslərdə daha çox irəliləyişə səbəb ola bilər.

Son statistikaya görə, onlayn nəzarət kassa aparatları üzərindən 15,3 milyard manatdan artıq dövriyyə həyata keçirilib. Bu da ötən ilin dövriliyi ilə müqayisədə 57-58 faiz artım deməkdir. Statistikadan da göründüyü kimi bu sahədə çox ciddi irəliləyişlər müşahidə olunur".

Nağd qaydada ödənilmiş ƏDV-nin 5 faizə endirilib, nağdsız ödənişlərdən geri qaytarılan məbləğin 17,5 faizə qaldırılmasına gəldikdə isə ekspert bu dəyişikliyi doğru və təqdirəlayiq hal kimi dəyərləndirib: "17,5 faizlik artım o deməkdir ki, insanların nağdsız ödənişlərə marağı artacaq. Nağdsız ödənişlərin artması isə dövriyyənin daha şəffaf olması, vergidən yayınmaların qarşısının alınmasına, nağd pul kütləsinin tədricən aradan qalxmasına və vergi yığımına əhəmiyyətli dərəcədə təsir edəcək. Şübhəsiz ki, burada vətəndaşların da ciddi mənfəətləri olacaq".

**Şəymən**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 3170



## Belçikalı uşaq 12 yaşında doktorluq oxuyacaq

**Belçikalı Loren Simons kiçik yaşda olmağına baxmayaraq elm aləmində diqqətləri üzərinə çəkməyi bacarıb.**

Balaca Eynşteyn adlandırılan Simonsun atası Aleksandr Simons oğlunun Almaniyadakı Maks Plank Universitetində doktorluq dərəcəsini müdafiə edəcəyini bildirib. Proqram barəsində tam məlumat verməyən ata bunun kimya, fizika və tibb sahələrinin qarışımı olacağını, oğlunun vaxtının çoxunu laboratoriyada keçirəcəyini deyib.

*Qeyd edək ki, Belçikanın qərbindəki sahil qəsəbəsi Ostenddə dünyaya gələn Laurent Simons 6 yaşında məktəbi bitirib. 9 yaşında Belçikada universitetə daxil olub və 11 yaşında diplomunu alıb. O, bu yaz 12 yaşındaykən Antverp Universitetində Kuantum fizikası sahəsində magistraturanı tamamlayıb.*

**Nihat Müzəffər**

## Gündəlik xəbərləri oxumaq psixi pozuntular yaradır



**Hər gün dünyada və ölkədə baş verən xəbərləri izləmək insan psixikası üçün təhlükəlidir.**

"Medicina" xəbər verir ki, psixiatr Aleksandr Fedoroviç bunun insanda psixi pozuntular yaratdığını deyib. Həvəslə xəbərləri oxuyan, dünyada baş verənlərə maraq göstərənlərdə panik atak, təşviş pozuntusu, iştah azalması, yuxusuzluq, depressiya baş verir. Onlar həyatdan qorxur, güvənmir və bütün bunların səbəbkarının xəbərlər olduğunu da anlamır. İnsanlar bilməlidir ki, onlar üçün birinci yerdə öz şəxsi həyatları gəlməli, sonra siyasi, iqtisadi, dünyada baş verənlər. Bəzən insanlar problemin səbəbini bilir, amma yenə də bu vərdişini tərgidə bilmir. Kütləvi informasiya vasitələri, sosial şəbəkələr həyat keyfiyyətini azaldır, apatiyaya səbəb olur, insanın əhvalı düşür. Nəticədə sonda ağırlaşmalarla həkim psixiatra gəlir.



# Yadplanetlilər haqqında gerçəklər

## "Bizi qarışqa kimi görürlər"



**Yer planetindən savayı başqa planetlərdə də həyat varmı? Kainatda başqa canlılar da yaşayırmı? Necədirlər, necə həyat tərzi keçirirlər, insan övladına bənzəyirlərmi?.. Bu suallar uzun illərdir alimləri də düşündürür, sadə insanları da. Yadplanetlilərlə bağlı elmi araşdırmalar da aparılır, qorxulu, gülməli və məzəli filmlər də çəkilir.**

Lakin dəqiq məlumat hələ də əldə edilməyib. Alimlər son zamanlar yadplanetliləri qarışqalarla müqayisə etməyə başlayıb. Alimlər bu qənaətdədir ki, dünyamız xaricində var olma ehtimalı yüksək varlıqlar bəşər tarixindən daha da qədimdir. "Şərq" "Milliyet.com"a istinadən bildirir ki, BBC tərəfindən yayımlanan "İlk təmas: Bir yadplanetli ilə qarşılaşmaq" adlı bəlgəsəldə həqiqətən də yadpalenitlilərin var olması halında nələr yaşana bilər, senarisi tərtib edilib. Bəlgəsəldə guya ki, yadplanetlilərdən siqnallar alındığı göstərilir. Senariyə görə, insanlarla əlaqə quran yadplanetlilərlə rabitə yaratmaq dünyada müxtəlif problemlərə səbəb ola bilər. Astrofizik-professor Michael Garrett, bəlgəsəllə bağlı "orada xəyal belə etmədiyimiz baş verə bilər. Bu durum qarışqaların insanlarla əlaqə yarada bilməsinə bənzəyir, həm də çox. Biz - Yer planeti sakinlərinin yadplanetlilərlə müqayisədə qarışqalarla eyni durumda olma ehtimalımız daha böyükdür. Günəş sisteminin yaşı 4.5 milyard ildir, dünyamızın yaşı isə 13,8 milyard ildir. Dünyamız xaricində bizdən qat-qat artıq qədim mədəniyyətlər mövcud ola bilər. Bu nəhəng fərqi nəzərə aldıqda biz yadplanetlilərlə müqayisədə qarışqa kimiyik. Buna qarışqalarla insanlar arasındakı fərq kimi baxın. Biz insanlar qarışqaları saya belə salmırıq. Eyni məntiqlə Yer üzünün insanları da hansısa başqa planetdə yaşayanların vecinə də deyil. Onlar da bizi, biz qarışqalara baxdığımız kimi görə və müşahidə edə bilər.

**Məlahət Rzayeva**

## Hamilə qadın təyyarədə uşaq dünyaya gətirdi



**Daha bir qadın 10 min metr Yerdən yüksəklikdə uşaq doğub.**

**"Medicina" xəbər verir ki, 21 yaşlı Kendriya Roden 32 həftəlik hamilə ikən Dominikana uçan təyyarədə olub.**

**Qadının ağlına da gəlməzdi ki, 32 həftədə doğuş ola bilər. Təyyarə yerindən qalxandan özünü narahat hiss etsə də, ailəsinə bəlli etməyən qız artıq suyu açılanda dözmür. 34-cü dəqiqədə onun sancıları başlayır. Ekipaj və sərnişinlərin dəstəyi ilə 20 dəqiqə ərzində onun oğlu dünyaya gəlir. Təyyarə yerə endikdən sonra hər ikisi xəstəxanaya çatdırılır. Uşağın vətəndaşlığı ABŞ üzrə olur.**

## Eyni serialda olacaqlar

### Türkiyəli aktyor Oktay Çubukun yeni layihəsi bəlli olub



**Axşam.az xəbər verir ki, aktyor "Benim adım Farah" serialında rol alacaq. O, ekran işində "Kaan" obrazına həyat verəcək. Layihə məşhur "The cleaning lady" serialı əsasında lentə alınacaq.**

**Bundan başqa, layihədə baş rollardan birini canlandıran Aslı Ənvərin tərəf müqabili Fırat Tanış olacaq.**

***Qeyd edək ki, Oktay sonuncu dəfə "Ah Nerede" serialında "Ferit" obrazını canlandırıb.***



# Heç vaxt sürücülük vəsiqəsi olmayıb

## II Elizabetin "Jaguar"ı hərraca çıxarılır

**Kraliçası II Elizabetə (1926-2022) məxsus "Jaguar X-Type Estate" universal avtomobili İngiltərənin "Historics Auctioners" hərrac evi tərəfindən hərraca çıxarılacaq.**

Oxu.az xəbər verir ki, hərrac noyabrın 26-da keçiriləcək. Lot üzrə başlanğıc və minimum satış qiyməti müəyyən edilmədiyi üçün avtomobil nəzəri cəhətdən hətta bir funt-sterlinqə də satıla bilər.

Məlumata görə, II Elizabet 2009-cu ildə buraxılan avtomobilin ilk sahibi olub və cari ilin yazına qədər ondan istifadə edib.

Qeyd edək ki, kraliça avtomobil həvəskarı kimi şöhrət qazanmışdı. Hələ şahzadə ikən, II Dünya müharibəsi zamanı o, təcili yardım maşını sürücüsü kimi təhsil alıb. Keçən ilin noyabrında həkimlər ona iki həftəlik istirahət etməyi tövsiyə edəndən bir neçə gün sonra monarx "Jaguar"ın sürücü oturacağında görünmüşdü.

Onu da bildirək ki, II Elizabetin heç vaxt sürücülük vəsiqəsi olmayıb. O, Birləşmiş Krallıqda lisenziyasız və nömrə nişanı olmadan avtomobil idarə etməyə icazə verilən yeganə şəxs idi.

## Xana sui-qəsd edildi

### Keçmiş baş nazir ayağından yaralanıb





**Pakistanın keçmiş baş naziri İmran Xan mitinq karvanında açılan atəş nəticəsində yaralanıb.**

Pakistanın keçmiş baş naziri İmran Xanın seçki karvanına silahlı hücum edilib. Yerli medianın məlumatına görə, hücum nəticəsində Xan ayağından yaralanıb. Xan hökuməti növbədənkənar seçkilərə sövq etmək kampaniyasının bir hissəsi olaraq böyük yük maşınları və avtomobil karvanı ilə paytaxt İslamabada yürüş edib.

Hücumdan sonra keçmiş baş nazirinin başqa avtomobilə mindirildiyi şok görüntülər əks olunub. İlkin məlumata görə, Xanın həyatı üçün təhlükə yoxdur. Hücumla bağlı AFP-yə açıqlama verən Xanın baş köməkçisi Rauf Həsən mitinqdə keçmiş baş nazirin ayağından güllələndiyini təsdiqləyib. "Vəziyyəti stabildir. Bu, onu öldürməyə cəhdi idi" deyə Həsən bildirib. Yerli xəbərlərə görə, şübhəli şəxs həbs edilib.

**Turan**